6 oktyabr 2021 №75 (1852) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Müharibədə Zəfər qazandıq, sülh dövrü də zəfərlə davam edəcək

### Prezident İlham Əliyev: "Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək"





Bir il öncə bu günlər Vətən müharibəsinin şimal və cənub cəbhələrindən – Cəbrayıl və Tərtər-Ağdərə istiqamətlərindən həyəcanla gözlənilən döyüş və zəfər xəbərləri gəlirdi. Bir il sonra bu torpaqlardan, azad yurd yerlərimizdən genişmiqyaslı quruculuq işlərinin xoş xəbərləri gəlir...

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində və Talış kəndində olub. Strateji mövqelərə malik hər iki yaşayış məntəqəsi 2020-ci ilin məhz bu günündə qızğın döyüşlərdən sonra rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilib. Dövlət başçısı Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub. Prezident İlham Əliyev Tərtər rayonunun Talış kəndində və Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb. Prezident Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində və rus-pravoslav kilsəsində olub, hər iki dini abidənin təmir-bərpa ediləcəyini bildirib: "Ermənilərdən fərqli olaraq biz bütün dini abidələrə hörmətlə yanaşırıq. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur. Bütün dini konfessiyaların abidələri bundan sonra da qorunacaqdır".

Suqovuşan qəsəbəsində Azərbaycan bayrağının ucaldılmasından sonra çıxış edən Prezident İlham Əliyev bir il öncə bu günlər Vətən müharibəsi cəbhələrində qazanılan qalibiyyətin əhəmiyyətini bir daha vurğulayıb: "İndi əgər müharibənin xronologiyasına baxsaq, görərik ki, sentyabrın 27-də 6 kənd, Murovdağ silsiləsi, Ağdərə dağları, oktyabrın 3-də isə 8 kənd, o cümlədən Suqovuşan qəsəbəsi və Talış kəndi azad edildi. Oktyabrın 4-də bir çox kəndlər azad edildi, o cümlədən Cəbrayıl şəhəri. Yəni, bu, ordumuza əlavə güc verdi, mənəvi ruh verdi. Bu mənəvi üstünlüyü biz müharibənin son gününə qədər, son dəqiqəsinə qədər saxlamışdıq... Bundan sonrakı dövrdə Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin şanlı Zəfər yürüşü davam etmişdir".

Müzəffər Ali Baş Komandan oktyabrın 4-də Vətən müharibəsində ilk böyük qalibiyyətin ünvanı olan Cəbrayıl şəhərinə gəlib. Vətən müharibəsi başlayandan Prezident İlham Əliyevin televiziya ilə xalqa zəfər müjdəli ilk müraciəti bu şəhərlə bağlı olmuşdu: "Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!".

Bir il sonra dövlət başçısı artıq Cəbrayıl şəhərində, rayon sakinləri ilə üz-üzə görüşdə onlara bu sözlərlə müraciət etdi: "Əziz cəbrayıllılar, əziz dostlar, sizi səmimiyyətlə salamlayıram və "Cəbrayıla xoş gəlmisiniz" deyirəm. Cəbrayıllılarla müzəffər Ordumuzun Qələbəsindən sonra ilk görüşümdür və bu görüşü məhz oktyabrın 4-də keçirmək xüsusi məna daşıyır. Çünki düz bir il əvvəl məhz oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini işğalçılardan azad etdi və bu gün bu şanlı tarixi birlikdə qeyd etmək üçün mən cəbrayıllıları onların öz yurduna, vətəninə dəvət etdim. Ona görə "Cəbrayıla xoş gəlmisiniz" demək sözləri ilə öz çıxışıma başlayıram. Amma əminəm ki, bundan sonra mən Cəbrayıla gələndə həmişə cəbrayıllılar mənə "Xoş gəlmisiniz, cənab Prezident" deyəcəklər".

#### "Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq"

Dövlət başçısı vurğulayıb ki, oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq: "Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi... Oktyabrın 4-də cəbrayıllıları və bütün Azərbaycan xalqını mən bu xoş müjdə ilə sevindirmişdim – Cəbrayıl şəhəri azad edilmişdir! Bir il bundan əvvəlki dövrə qayıtsaq Qələbəmizin əzəmətini bir daha görərik. Çünki müharibə getdiyi zaman, əlbəttə, bizim gündəlik fəaliyyətimiz qələbəni möhkəmləndirmək, işğal edilmiş bütün torpaqları azad etməkdən ibarət idi. Yəni, əldə edilmiş uğurları təhlil etmək üçün heç vaxt yox idi və buna heç gərək də yox idi. Amma bu gün müharibədən və Cəbrayılın azad olunmasından bir il keçməsindən sonra bunu daha dəqiq və aydın təhlil edərkən görürük ki, bu Qələbənin çox böyük əhəmiyyəti olmuşdur. Eyni zamanda, məhz burada, bu ərazidə düşmən bir neçə xətdən ibarət istehkamlar qurmuşdu və bu istehkamları yarmaq çox böyük qəhrəmanlıq və fədakarlıq tələb edirdi. Bizim əsgər və zabitlərimiz, sözün əsl mənasında, ölümə gedirdilər. Biz şəhidlərimizin canı-qanı bahasına öz doğma torpaqlarımıza qayıtmışıq".

*davamı səh. 2-də*

## UNESCO-nun mənzil-qərargahında Nizami Gəncəvinin 880 illiyi qeyd edilib

Parisdə UNESCO-nun mənzil-qərargahında qurumdakı Azərbaycan Daimi Nümayəndəliyi və UNESCO Baş Direktorluğunun birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi İli" çərçivəsində Azərbaycanın böyük mütəfəkkiri və şairi Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev, UNESCO Baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone Ramirez, Türkiyənin UNESCO yanında daimi nümayəndəsi, səfir Altay Cengizer çıxış ediblər.

*davamı səh. 2-də*

## "Mədəniyyətimizi dirçəldib daha irəliyə aparmalıyıq"

### Bir qrup mədəniyyət və incəsənət xadiminə mükafatlar təqdim olundu



Oktyabrın 5-də Azərbaycan Milli İncəsənət Muzeyində Prezident İlham Əliyevin 29 mart 2020-ci il, 17 mart, 5 iyun, 31 iyul 2021-ci il tarixli sərəncamları ilə təltif edilmiş bir qrup mədəniyyət və incəsənət xadiminə mükafatların təqdimetmə mərasimi keçirildi.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov ölkəmizdə mədəniyyət və incəsənət sahələrində xidmətləri olan şəxslərə göstərilən dövlət qayğısından danışdı. Vurğuladı ki, vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən mədəniyyət və incəsənət xadimlərinə göstərilən diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mədəniyyətimizin dünyada tanıdılması və təbliği istiqamətində görülən işlərdən söz açan nazir Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahədə mühüm xidmətləri olduğunu xüsusi qeyd etdi.

Anar Kərimov bildirdi ki, mədəniyyətimizin inkişafı daim dövlət başçısının tərəfindən diqqət mərkəzində olub: "Bildiyiniz kimi, cənab Prezidentin tapşırığı ilə Mədəniyyət Nazirliyində islahatlara başlamışıq. Məqsəd mədəniyyətimizin inkişafında cəmiyyətimizin rolunun artırılmasına nail olmaqdır. Bu missiyanın gerçəkləşməsində görkəmli mədəniyyət xadimlərinin fəaliyyəti də böyük təsirə malikdir. Əcdadlarımızdan bizə miras qalan mədəniyyətimizi daha da dirçəldib irəliyə aparmalıyıq. Çalışmalıyıq ki, yeni nəsli də bu ruhda tərbiyələndirək".

*davamı səh. 3-də*




## Regionun ən böyük kitab bayramı

### Görüş yeri Bakıdır

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 6-10 oktyabr tarixində paytaxtdakı Ekspo Mərkəzində VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək.

Oktyabrın 5-də "Abşeron Marriott" hotelində sərgi-yarmarka ilə bağlı mətbuat konfransı təşkil olundu. Tədbirdə Mədəniyyət Nazirliyi Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli, "Caspian Event Organisers" ("CEO") şirkətinin baş direktoru Fərid Məmmədov, icraçı direktoru Bəhruz Hidayətzadə iştirak edirdilər.

VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası haqqında məlumat verən Akif Marifli qeyd etdi ki, builki sərgi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunub.

*davamı səh. 2-də*

## Moskva Konservatoriyasında "Qarabağ şikəstəsi"



Heydər Əliyev Fondunun və Azərbaycanın Rusiyadakı Səfirliyinin təşkilatçılığı ilə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının Raxmaninov salonunda "Şuşanın dağları başı dumanlı…" adlı muğam axşamı keçirilib.

Tədbirdə Türkiyənin Rusiyadakı səfiri Mehmet Samsar, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya ictimaiyyətinin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Moskva Konservatoriyasının səhnəsindən Əməkdar artistlər Qoçaq Əsgərov (xanəndə), Babək Niftəliyev (xanəndə), Sahib Paşazadə (tar), Toğrul Əsədullayev (kamança), Kamran Kərimov (nağara), Rafael Əsgərovun (balaban) xanəndələr Səbinə Ərəbli, Almaxanım Əhmədlinin ifasında "Qarabağ şikəstəsi", "Xudayar təsnifi" və muğam xəzinəmizdən digər incilər səslənib.

Azərbaycanın Qarabağ Zəfərindən sonra Moskvada ilk dəfə ucalan "Şuşanın dağları başı dumanlı..." mahnısı dinləyicilərə xüsusi zövq verib.

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu ifaçıları maraqlı konsert proqramı münasibətilə təbrik edərək deyib: "Mən bu gün çox xoşbəxtəm ki, Moskva Dövlət Konservatoriyasının səhnəsində "Qarabağ şikəstəsi" səslənir".

Azərbaycanın Rusiyadakı Səfirliyinin mədəniyyət məsələləri üzrə attaşesi Nigar Axundova çıxışında muğam sənətimizin UNESCO-nun siyahısına salındığını diqqətə çatdıraraq deyib: "Bu axşam Moskvada Azərbaycan muğam məktəbinin korifeyləri – Bülbül, Xan Şuşinski, Seyid Şuşinski və digərlərinin layiqli davamçıları olan tanınmış xanəndələrimiz Qarabağ torpağından pərvazlanan ən füsunkar muğam nümunələrini rusiyalı dinləyicilərə təqdim edirlər".

## Qarabağ torpağını dünyanın behişti adlandıran mütəfəkkir

Oktyabrın 3-də Bakı Dövlət Universitetində (BDU) Azərbaycan təsəvvüf ədəbiyyatının nümayəndəsi, sufi şairi, nəqşbəndi şeyxi Mir Həmzə Qarabaği Nigarinin fəlsəfəsinə və yaradıcılığına həsr olunan simpozium keçirilib.

BDU və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin (TADİV) birgə təşkilatçılığı ilə keçirilən simpoziumda öncə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib, şəhidlərin xatirəsi anılıb.

Tədbiri açan BDU-nun rektoru Elçin Babayev çıxışının əvvəlində Azərbaycan-Türkiyənin qardaşlığından, bir il əvvəl bu günlər davam edən Vətən müharibəsindən söz açıb.

*davamı səh. 4-də*

"Şəhidlər və şahidlər" adlı rəsm sərgisi



*səh. 3*

"Elm, təhsil və mədəniyyət məsələləri üzrə" İşçi Qrupunun iclası keçirilib

*səh. 3*



Ölkə teatrlarında antrakt bitdi...

*səh. 5*

№75 (1852)
6 oktyabr 2021
www.medeniyyet.az

# Müharibədə Zəfər qazandıq, sülh dövrü də zəfərlə davam edəcək



əvvəli səh. 1-də

Prezident diqqətə çatdırıb ki, məhz Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan bizim digər rayonlara uğurlu addımlarımız mümkün oldu: “Həm də Cəbrayıl əməliyyatının çox böyük əhəmiyyəti var idi və deyə bilərəm ki, həlledici əhəmiyyəti var idi. Çünki biz düşmənin müdafiə xəttini məhz bu istiqamətdə yara bilmişik”.

Prezident qeyd edib ki, Cəbrayılın azad olunması artıq beş il bundan əvvəl, 2016-cı ilin Aprel döyüşlərində başlamışdı: “Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi. Çünki bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi... Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcı idi. Yəni, bizim Böyük Qayıdışımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq”.

### “Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm...”

“Müharibə bitdi, biz qalib gəldik, yeni reallıq yaratdıq, hər kəs bu reallıqla hesablaşmalıdır və hesablaşacaq” deyən dövlət başçısı Azərbaycanın yeni şəraitdə regional əməkdaşlıqla bağlı xoşniyyətli siyasət yürütdüyünü bir daha diqqətə çatdırıb. Bildirib ki, hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır: “Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni, bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. İndi reallıq bundan ibarətdir. Son vaxtlar Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılması ilə bağlı verilən ifadələri də biz dəstəkləyirik... Yəni, bizim üçün bu format kifayətdir - Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda, bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir”.

İlham Əliyev daha sonra deyib: “Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada – Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq... Bilirsiniz, bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uydurmuşdur. Mənə məlumat verildi, mən dedim ki, fikir verməyin. Hansısa əyalət mollasının sözləri ilə biz indi bu fikirlərə əhəmiyyət verəsi deyilik. O kimdir ki?! Sadəcə olaraq, əhəmiyyət verməyin. Amma sonra, əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Onlar İsraili burada harada görüblər?! Burada bir adam da yaşamır. Burada bir bina da yoxdur. Sübutlar var? Yoxdur. Sübutlar yoxdursa, hər kəs gərək dediyi sözlərə görə cavabdehlik daşısın. Biz imkan verə bilmərik ki, bizə qarşı kimsə əsassız iftira uydursun”.

Prezident vurğulayıb ki, Azərbaycan müstəqil siyasət aparan ölkədir. Qonşularımızla və bütün başqa ölkələrlə münasibətləri müstəqil siyasət əsasında qururuq: “Heç kim bizim daxili işimizə qarışmasın. Biz hansı ölkə ilə hansı səviyyədə münasibətlər qururuq, bizim öz işimizdir. Axı, biz Ermənistan ilə sıx dostluq əlaqələri olan ölkələrə qarşı iddia qaldırmırıq... Biz 130 kilometr Azərbaycan-İran sərhədini işğalçılardan təmizlədik. 130 kilometr Ermənistanın işğalı altında idi. O vaxt burada hansı proseslər gedirdi, onu gərək araşdırsınlar. Hansı əlaqələr var idi, bunu biz indi araşdırırıq.

O ki qaldı, regionun gələcək inkişafı ilə bağlı, biz əməkdaşlığa hazırıq. Bu yaxınlarda Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşmüşdülər... Eyni zamanda, yəqin Azərbaycan ictimaiyyəti bilir, bu yaxınlarda mən demişdim ki, Ermənistan baş naziri ilə görüşməyə hazıram. O da demişdi ki, hazırdır. Yəni, bu, nəyi göstərir? Bu, onu göstərir ki, bizim gündəliyimiz artıq burada qəbul olunur. Bəziləri yəqin ki, bundan narahatdır. Amma əsas odur ki, Azərbaycanla Ermənistan arasında barışıq olsun, yəni sülh müqaviləsi imzalansın. Biz bunu istəyirik. Sərhədlərin delimitasiyası həyata keçirilsin”.

### Quruculuq dövrü: “Bu işləri özümüzə borc bilib görəcəyik”

Prezident qeyd edib ki, 2021-ci ilin 4 oktyabrı Cəbrayıl rayonunun inkişafı ilə bağlı çox önəmli gündür: “Çünki bu gün artıq bir neçə obyektin təməli qoyuldu. Bu obyektlərin inşası və inşaatından sonra fəaliyyəti zamanı bir çox sosial-iqtisadi məsələlər öz həllini tapacaq. İlk növbədə, təhlükəsizliklə bağlı tədbirlər. Bu gün mən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışını etdim. Orada nümayiş etdirilən ən müasir silahlar, sursatlar bizim sərhədlərimizi möhkəm, lazımi səviyyədə qorumaq üçün bizə imkanlar yaradacaq. Bu gün iqtisadi fəallıq üçün önəmli addımlar atıldı. “Araz Vadisi İqtisadi Zonası”nın təməli qoyuldu. Bu, 200 hektarı əhatə edən böyük bir layihədir. Artıq ilkin maliyyə vəsaiti ayrıldı. İlkin investorlar da müəyyən olundu. Bu gün “KamAZ” şirkətinin vitse-prezidenti və Rusiyanın Tatarıstan Respublikasının Baş nazirinin müavini xüsusi olaraq Azərbaycana gəlib və mənimlə bərabər “KamAZ” regional xidmət mərkəzinin açılışında iştirak etmişlər. Bu da çox önəmli hadisədir. Artıq Rusiya şirkəti də bu bölgəyə investisiya qoymağa başlayıbdır. Bildiyiniz kimi, Türkiyə şirkətləri də artıq Zəngilan rayonunda böyük kənd təsərrüfatı layihəsinə investisiya qoymağa başlamışlar. Bizim iki dost, qonşu ölkəmiz Azərbaycana bax, bu münasibəti bəsləyir. Azərbaycan da onlara eyni xoş münasibət bəsləyir. Eyni zamanda, sosial obyektlərin təməli qoyuldu. Xəstəxana, məktəb, bütün bunlar buraya insanların qayıdışı üçün əsas şərtlərdir.

Biz Cəbrayıl rayonunun elektrik təchizatının artıq demək olar ki, bütün işlərini gördük. Bu gün Cəbrayıl yarımstansiyası istifadəyə verildi... İndi gəldiyiniz yola da yəqin ki, fikir verdiniz. Görün, nə gözəl yol çəkilir. Cəbrayıla 4-6 zolaqlı yol çəkilir. Vaxtilə Ermənistan rəhbərliyi Cəbrayıla yol çəkmək istəyirdi. O da yarımçıq qaldı, onların bütün arzuları kimi. İndi biz Cəbrayıla yol çəkirik.




Bizim haqqımız var. Ən gözəl yollardan biri olacaq. Mən xüsusi tapşırıq verdim ki, geniş olsun, həm Cəbrayıla gələn vətəndaşlar rahat gəlsinlər, həm də buradan keçən Zəngəzur dəhlizi də bu yoldan istifadə edəcək. Bu gün birinci yaşayış binasının təməli qoyuldu. Artıq bu binanın da inşasına start verilir. Bu bina hazır olan kimi Cəbrayıl şəhərinin birinci sakinləri orada yerləşəcək. O vaxta qədər həm xəstəxana olacaq, məktəb olacaq, iş yerləri olacaq. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edildi. Bu gün, eyni zamanda, Zəfər və İşğal muzeylərinin təməli qoyulacaq. Hesab edirəm, ən önəmlisi odur ki, Cəbrayıl şəhərinin Baş planı siz cəbrayıllılara təqdim ediləcək. Biz bu plana bərabər baxacağıq. Əgər razılığınız olarsa, bu planı da təsdiq edəcəyik. Bizim planlarımız bundan ibarətdir. Biz müharibəni Zəfərlə başa vurduq. İndi sülh dövrünü də zəfərlə başlamışıq, zəfərlə başa vuracağıq”.

Prezident diqqətə çatdırıb ki, bu gün həm Cəbrayılda, həm də işləri artıq başlanan Ağdamda, Şuşada ən yüksək səviyyəli quruculuq işləri görüləcək: “Biz dünyanın ən gözəl təcrübəsini gətirmişik. Bütün işlər ən mütərəqqi texnologiyalar əsasında qurulacaq və bu işləri biz, necə deyərlər, özümüzə borc bilib görəcəyik”.

Dövlət başçısı vurğulayıb ki, ötən illərdə Azərbaycanın başlıca məsələsi Qarabağ, torpaqlarımızın azad edilməsi olub və bu məsələ artıq həllini tapıb: “İndi isə bərpa işlərinə start veririk. Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək. Bunu biz, ilk növbədə, insanlar üçün edirik. Əziyyət çəkmiş, çadırda, vaqonun altında, yataqxanada, uşaq bağçasında dözülməz şəraitdə yaşamış o insanlar ən yaxşı şəraitdə yaşamalıdırlar və yaşayacaqlar. Bunu biz təmin edəcəyik”.

***

Görüşdə Cəbrayıl rayonunun ictimaiyyəti adından Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Baş nazirin sabiq müavini Əli Həsənov, Cocuq Mərcanlı kəndinin sakini, 1-ci dərəcəli “Əmək” ordenli Oqtay Həziyev, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar artist Yaqut Abdullayeva, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov, Cəbrayıl Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov və başqaları çıxış ediblər.

Sonra Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Cəbrayıl şəhərində yaradılacaq Döyüş Muzeyi və Cəbrayıl Memorial Kompleksi barədə təqdimat edib.

Dövlətimizin başçısı Cəbrayıl Memorial Kompleksinin təməlini qoyub.

Daha sonra Cəbrayıl şəhərinin Baş planın təqdimatı olub. Bildirilib ki, şəhərin işğala qədər məskunlaşma ərazisi 335 hektar təşkil edib. Baş planda şəhərin mərkəzi zonası, yaşayış, inzibati və mədəniyyət binalarının yerləşəcəyi zonalar - ümumilikdə 17 zona nəzərdə tutulub. Bütün şəhər park kimi düşünülüb, çox geniş yaşıl zolaqlar salınacaq.

Dövlət başçısı Cəbrayıl şəhərində Türkiyə-Azərbaycan Dostluq Parkı da salınacağını diqqətə çatdırıb. Məlumat verilib ki, park şəhərin giriş hissəsində, vaxtilə Dostluq bulağı olduğu ərazidə nəzərdə tutulub.

Baş planla tanışlıqdan sonra dövlət başçısı Cəbrayıl şəhərinin təməl daşını qoyub.

Qeyd edək ki, oktyabrın 4-də Prezident İlham Əliyevin iştirakı ilə Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, Mərkəzi Xəstəxananın, ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirilib. Dövlət başçısı 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyasının, Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməlini qoyub. Həmçinin “KamAZ” ASC (Rusiya, Tatarıstan) ilə “Gəncə Avtomobil Zavodu” İB-nin Cəbrayıl rayonunda birgə servis mərkəzinin təməlqoyma mərasimi keçirilib.

# UNESCO-nun mənzil-qərargahında Nizami Gəncəvinin 880 illiyi qeyd edilib




əvvəli səh. 1-də

Səfir Elman Abdullayev Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun ölkəmizin mədəniyyətinin və ədəbiyyatının dünyada tanıdılması istiqamətində həyata keçirilmiş layihələrə toxunaraq, Nizami Gəncəvi ədəbi irsinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində reallaşdırdığı işlərdən danışıb. Dahi şairin “Xəmsə”sinin bir çox Avropa dillərinə tərcümə edildiyi qeyd edilib. Anadan olduğu Gəncə şəhərini heç vaxt tərk etməmiş böyük mütəfəkkir və şairin bir neçə dildə yazıb-yaratdığı diqqətə çatdırılıb.

Səkkiz əsr əvvəl dahi Nizaminin əsərlərində bu gün də aktuallığını itirməmiş ideya və dəyərlər - qadın hüquqları, bərabərlik, ədalət və sülhü təbliğ etdiyi bildirilib. Nizami əsərlərində təbliğ olunan ideya və dəyərlərin müasir dövrümüzdə də əsas ideyalar olaraq qaldığı və UNESCO-nun da bu gün bu ideyalar uğrunda çalışdığı vurğulanıb.

UNESCO Baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone Ramirez Nizami Gəncəvinin fəlsəfi ideyalarının əhəmiyyətinə toxunaraq əsərlərinin məziyyətlərindən danışıb: ”Nizami Gəncəvi əsərlərində ifadə olunan dəyərlər arasında ən əsası mədəniyyətlərarası dialoqdur ki, o da bu günün çağırışıdır. Onun mədəniyyətlərarası mübadiləyə açıq olan dünyagörüşü insanı valeh edir. XII əsrdə müxtəlif cəmiyyətlərdə bu dəyərin təbliği elə də asan deyildi”.

“Bu böyük mütəfəkkir, filosof və şair əsərləri vasitəsilə bu gün bəzi ölkələr arasında gərginliyin olduğu, təlatümlərlə dolu dünyada bir çox məsələlərə müəyyən aydınlıq gətirir. Böyük mütəfəkkir və şair Nizami Gəncəvinin 880 illiyinin qeyd edilməsi təqdirəlayiqdir”, – deyə o əlavə edib.

Altay Cengizer çıxışında bu gün yaşanılan hadisələr fonunda Nizaminin hələ XII əsrdə əsərlərində bəyan etdiyi humanist fəlsəfənin UNESCO-da tanıdılmasının əhəmiyyətini vurğulayıb. O, Türk Şurasına üzv dövlətlərin diplomatlarının da tədbirə qatılmasının önəmini diqqətə çatdırıb.

Tədbir çərçivəsində Nizami Gəncəvi əsərlərinin motivləri əsasında çəkilmiş miniatürlərdən ibarət sərgi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Azərbaycanlı pianoçu Etibar Əsədli və fransız violonçelçi Albertin Obert şairin sözlərinə yazılmış musiqiləri ifa ediblər.

# Regionun ən böyük kitab bayramı: görüş yeri Bakıdır

## Beş gün ərzində 150-yə yaxın tədbir keçiriləcək

əvvəli səh. 1-də

“Əsas məqsəd Nizami dühasını bir daha gənclərə, eyni zamanda sərgidə iştirak edəcək xarici oxuculara çatdırmaqdır. Kitab bayramı formatına görə bu il regionun ən böyük sərgisi hesab olunur. Sərgi-yarmarkada 43 xarici təşkilat, 99 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edəcək. Oxucularımız, yazıçılarımız sərgidə çoxsaylı süprizlərlə qarşılaşacaq. Sərgidə imza günlərinə üstünlük verilib. Ümumilikdə sərgidə müxtəlif formatda 150-yə yaxın tədbirin keçirilməsi nəzərdə tutulub”, - deyə o bildirib.

Şöbə müdiri bildirdi ki, sərgidə gənc oxucular və uşaqlar üçün xüsusi tədbirlər keçiriləcək. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı tərəfindən Nizami Gəncəvinin əsərləri əsasında hazırlanmış kukla tamaşaları, uşaq yazıçılarının təqdimatında müxtəlif rəngarəng nağıl gecələri, xarici müəlliflər və türkiyəli yazıçıların imza günləri gerçəkləşəcək. Sərgidə həmçinin Nizami Gəncəvinin bu il işıq üzü görmüş kitablarının nümayişi olacaq.

Daha sonra çıxış edən “Caspian Event Organisers” (“CEO”) şirkətinin icraçı direktoru Bəhruz Hidayətzadə iyun ayından etibarən sərgiyə hazırlığa başladıqlarını söylədi: “Bu müddət ərzində əlimizdən gələni etdik ki, sərgini kitabsevərlər üçün fərqli, dinamik, dolğun edək. Sərgiyə gələn oxucular tanınmış yerli yazarlarla görüşmək imkanı əldə edəcək. Ən əsası burada çoxsaylı kitabın təqdimatı olacaq. 44 günlük Vətən müharibəsinə həsr olunan yeni kitablar da sərgidə nümayiş etdiriləcək”.




İcraçı direktor vurğuladı ki, sərgi çərçivəsində keçiriləcək tədbirlər eyni anda, müxtəlif yerlərdə reallaşacaq: “Oxucularımıza əvvəlcədən sərginin rəsmi saytında tədbirlərin proqramı ilə tanış olmağı söyləmək istəyirəm. İlk dəfədir ki, kitab sərgisi Bakı Ekspo Mərkəzində təşkil olunur. Mərkəzdə 2010-cu ildən bu günə kimi yüzlərlə beynəlxalq səviyyəli tədbir keçirilib. Mərkəzin hər cür texniki təchizatı, imkanları olduğu üçün buraya gələn qonaqların rahatlığı təmin olunacaq. Ziyarətçilər üçün sərgiyə “Koroğlu” metro stansiyasından hər yarım saatdan bir, “Elmlər Akademiyası” stansiyasının yanından isə hər saatdan bir avtobuslar hərəkət edəcək”.

Sonda media nümayəndələrinin sualları cavablandırıldı.

Qeyd edək ki, sərgi-yarmarkanın əsas məqsədi cəmiyyətdə kitaba olan marağı artırmaq və mütaliə mədəniyyətini təbliğ etmək, oxucuları nəşriyyat işi sahəsində olan rəqəmsal yeniliklərlə tanış etmək, ölkəmizdə kitab sənayesi sektorunun və müasir ədəbi proseslərin inkişafını dəstəkləməkdir.

İştirakçılar üçün 6 kvadratmetrə qədər ekspozisiya sahəsi və lazımi avadanlıqlar Mədəniyyət Nazirliyi tərəfindən ödənişsiz olaraq təmin edilir. Sərgidə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları və musiqi proqramları təşkil ediləcək.

Azərbaycanın xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar və məşhur xarici müəlliflər və aktyorlar sərgidə iştirak edəcəklər. Çingiz Abdullayev, Gülseren Budayıcıoğlu, Elxan Elatlı, Sinan Yağmur, Toğrul Mehti Niyazi, Ercan Kesel və digər tanınmış yazıçı və məşhur şəxslər sərgidə günün “fəxri qonağı” olacaqlar.

İştirakçılar tərəfindən sərgidə satışa çıxarılacaq bütün kitablara endirimlər nəzərdə tutulur.

Sərginin sponsoru “BP” şirkəti, baş TV tərəfdaşı Azərbaycan İctimai Televiziyasıdır. Festivala təşkilati dəstəyi “Caspian Event Organisers” şirkəti həyata keçirir.

**NURƏDDİN**

# "Mədəniyyətimizi dirçəldib daha irəliyə aparmalıyıq"

əvvəli səh. 1-də

Tədbirin əlamətdar tarixdə - Beynəlxalq Müəllimlər Günündə keçirildiyini diqqətə çatdıran nazir bildirdi ki, əgər müəllimin auditoriyası sinif otağıdırsa, sənət insanlarının auditoriyası cəmiyyətdir. İncəsənət və mədəniyyət xadimləri cəmiyyətə və gənc nəslə ənənələrimizin və milli mədəniyyətimizin ötürücüləridir. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının 100 illik yubileyi ərəfəsində mükafatlandırıldığını deyən nazir dövlətin teatr sahəsinə göstərdiyi diqqət və qayğıdan söz açdı. Bildirdi ki, bu təkcə aktyorlara ayrılan diqqətlə bitmir, həmçinin teatrların maddi-texniki bazaları da yaxşılaşdırılır. "Hər bir ölkənin ən böyük səfirləri onun sənət adamlarıdır. Bu gün bu işi həyata keçirmək ikiqat məsuliyyətlidir. Bu gün doğma Qarabağımız işğaldan azad olunub və mədəniyyət sahəsində mücadiləmiz isə hələ də davam edir. Azərbaycan əsrlərdən gələn zəngin mədəniyyəti və adət-ənənələri ilə tanınır. Bu ənənənin daşıyıcıları isə həm də incəsənət xadimləridir", - deyə nazir əlavə etdi.

Daha sonra Anar Kərimov təltif olunanları təbrik etdi, onlara yaradıcılıq uğurları arzuladı.

Sonra ölkə başçısının müvafiq sərəncamları ilə "İstiqlal", "Şərəf" ordenləri və digər fəxri adlarla təltif edilən mədəniyyət və incəsənət xadimlərinə mükafatların vəsiqə və medalları təqdim olundu.

"İstiqlal" ordeninə layiq görülən Xalq artisti Xuraman Qasımova sənətə gəlişi və xatirələrini dilə gətirdi. Bildirdi ki, hələ gənc yaşlarında Milli İncəsənət Muzeyində dəfələrlə konsertləri lentə alınıb. Valideynlərinin düzgün istiqamətləndirmələri nəticəsində Fidan və Xuraman Qasımovalar hər zaman Azərbaycan mədəniyyətini bütün dünyada layiqincə təbliğ etməyə çalışıblar: "Yaradıcılığımız həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev tərəfindən hər zaman yüksək qiymətləndirilib. Buna görə də ölkə Prezidentinə dərin təşəkkürümüzü bildiririk".



"Şərəf" ordeni ilə təltif olunan Xalq artisti Flora Kərimova ilk növbədə 80 yaşı ərəfəsində doğma yurdu Şuşanın azad edilməsindən qürur duyduğunu dilə gətirdi. O, şanlı Qələbəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını ifadə etdi, yaradıcılığına olan diqqətə görə, xalqının sevgisinə görə təşəkkürünü bildirdi.

Akademik Rus Dram Teatrı aktyorlarına mükafatlar təqdim olunan zaman "Xalq artisti" fəxri adını alan aktyor Fuad Osmanov özünün bir aktyor kimi yetişib bu məqama çatmasında əməyi olan əziz kollektivinə minnətdar olduğunu dedi.

3-cü dərəcəli "Əmək" ordeni, "Tərəqqi" medalı, "Əməkdar artist", "Əməkdar mədəniyyət işçisi" fəxri adları alan teatr kollektivi fəaliyyətlərinə verilən yüksək qiymətə, göstərilən diqqət və qayğıya görə ölkə başçısına dərin minnətdarlıqlarını bildirdilər.

**Lalə AZƏRİ**

# Azərbaycan İCESCO ilə əməkdaşlığa böyük önəm verir



Oktyabrın 4-də Bakı Dövlət Universitetində (BDU) İCESCO-nun "Cihazqayırma və tərsinə mühəndisliyin əsasları" üzrə birinci seminarı başlayıb. Oktyabrın 7-dək davam edəcək beynəlxalq tədbir mövcud əməkdaşlıq çərçivəsində İCESCO-nun təşəbbüsü, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İCESCO üzrə Milli Komissiyanın iştirakı ilə keçirilir. Seminara İCESCO-nun Elm və texnologiyalar sektorunun rəhbəri Rahil Qamar və BDU-nun rektoru Elçin Babayev sədrlik edir.

Seminarın açılış mərasimində Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev çıxış edərək Azərbaycanın İCESCO ilə yaxından əməkdaşlıq edən və bu əlaqələrə böyük önəm verən üzv dövlətlərdən biri olduğunu qeyd edib. Bildirib ki, bu nüfuzlu beynəlxalq təşkilatın əlaqələrindən yararlanaraq digər üzv ölkələrlə təhsil, elm və mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək üçün geniş imkanlar var. Bu əməkdaşlıq əlaqələri BDU-nun da elm və təhsil sahəsindəki uğurlarının artmasına yeni yol aça bilər.

Azərbaycanla İCESCO arasında əlaqələrin inkişafında Prezident İlham Əliyevin rolunu vurğulayan rektor dövlət başçısının 2015-ci ildə İCESCO Baş Konfransının Bakıda keçirilmiş XII sessiyasında əhatəli çıxışını yada salıb. Vurğulanıb ki, 2009-cu ildə Bakının, 2018-ci ildə isə Naxçıvan şəhərinin "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi ölkəmizin təşkilatla əlaqələrinin dinamik inkişafından xəbər verir: "Eyni zamanda onu da xüsusi vurğulamaq lazımdır ki, İCESCO daim Azərbaycanın ədalətli mövqeyini müdafiə etmiş, həm münaqişə dövründə, həm 44 günlük Vətən müharibəsi günlərində, eləcə də tarixi Zəfərimizdən sonra ölkəmizə ən yüksək səviyyədə dəstəyini ifadə edib".

Rektor İCESCO ilə əlaqələrin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasında və canlanmasında təşkilatın xoşməramlı səfiri, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi qeyd edib. Mehriban Əliyevanın sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyəti, qayğıya ehtiyacı olan uşaqlara diqqəti, təhsil və elm sahələrində, həmçinin İslam dünyasında görülən işlərə böyük dəstəyi barədə qonaqlara məlumat verilib.

Sonra BDU-nun əməkdaşı Lalə Hüseynzadənin hazırladığı "Şuşa bizi gözləyir!" adlı qum kompozisiyası və Heydər Əliyev Fondunun Azərbaycanın milli sərvətlərinə, qədim mədəniyyətinə, tarixinə həsr olunmuş videoçarx nümayiş olunub.

İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin videotəbriki təqdim edilib, təşkilatın fəaliyyətini əks etdirən videçarx nümayiş olunub.

Daha sonra Azərbaycan Respublikasının İCESCO üzrə Milli Komissiyasının baş katibi, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə, Təhsil Nazirliyinin Elm və ali təhsil şöbəsinin müdiri Nicat Məmmədli, İCESCO-nun nümayəndəsi, elmi tədbirlər üzrə ekspert Foued Elayni, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov, Orta Şərq Texniki Universitetinin (Ankara) professoru Ahmet Oral, Pakistanın Elm və Texnologiya üzrə Milli Universitetinin mühəndisi Mohsin Tivana çıxış ediblər. Pakistan Virtual Universitetinin rektoru, professor Arshad Saleem Bhattinin açılış mərasimində təbrik məktubu səsləndirilib.

Qeyd edək ki, dörd gün davam edəcək seminarın məqsədi cihazqayırmaya və tərsinə mühəndisliyə dair əsas ideyaları təqdim etmək, habelə müxtəlif növ sensorların istifadəsi, verilənlərin əldə olunması və emal edilməsi haqqında iştirakçıları məlumatlandırmaqdır. Seminar iştirakçıları cihazların işlənməsinin əsas komponentləri ilə tanış olub, eyni zamanda sensorlardan gələn siqnalları əldə etmək və mikronəzarətçilər vasitəsilə idarə etməyi öyrənəcəklər. Təlimlərin sonunda iştirakçılar özləri temperatur tənzimləyiciləri, elektrikölçmə sistemləri və s. sadə cihazları işlətməyi təcrübə edəcəklər.

Seminarın ilk hissəsi mühazirə, ikinci hissəsi isə praktik təlimlərdən ibarətdir. Təlimlərdə BDU tələbələri ilə yanaşı, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Bakı Mühəndislik Universitetinin tələbələri də iştirak edirlər.

# "Elm, təhsil və mədəniyyət məsələləri üzrə" İşçi Qrupunun iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Elm, təhsil və mədəniyyət məsələləri üzrə" İşçi Qrupunun növbəti iclası keçirilib.

Videokonfrans formatında təşkil olunan iclasda İşçi Qrupda təmsil olunan Prezident Administrasiyası, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Əqli Mülkiyyət Agentliyi, Dövlət Turizm Agentliyi, Qarabağ Dirçəliş Fondu və AMEA-nın nümayəndələri iştirak ediblər.

İclasda işğaldan azad edilmiş torpaqlarda mədəni irsin qorunması, bərpası və təbliği, son arxeoloji araşdırmalar, elmi görüşlərin nəticələri və gələcək perspektivləri haqqında məlumatlar, təhsil infrastrukturu, icraatda olan işlərin ilkin nəticələri, İşğal və Zəfər muzeylərinin layihələndirilməsi, turizm imkanlarının perspektivləri barədə müzakirələr aparılıb, qarşıda duran məsələlərlə bağlı aidiyyəti dövlət qurumlarına tapşırıqlar verilib.

Ölkə başçısının 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Bölgələrdən xəbərlər

# Tədbirlər, görüşlər, təqdimatlar

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Uşaq incəsənət məktəbinin ilk tədris günündə "Qayıdan torpaqlar, qayıtmayan oğullar" adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbində "Əlillərə dövlət qayğısının təzahürləri" adlı tədbir keçirilib.



Ağstafa Regional Mədəniyyət İdarəsi Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə Beynəlxalq Ahıllar Gününə (1 oktyabr) həsr olunmuş "Ahıllara hörmət milli dəyərimizdir" mövzusunda tədbir təşkil edilib. Ağstafa rayon Mədəniyyət Mərkəzində isə "Ahıllarla görüşək" adlı tədbir keçirilib. Tovuz rayon Qovlar şəhər Uşaq musiqi məktəbinin müəllim və şagirdləri Beynəlxalq Musiqi Gününə (1 oktyabr) həsr edilmiş konsert proqramı təşkil edib. Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbinin, Qazax şəhər 1 və 2 nömrəli Uşaq musiqi məktəbinin pedaqoji kollektivləri də əlamətdar gün münasibətilə tədbirlər keçiriblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı Amerika səfirliyinin maarifləndirici proqramlar üzrə direktoru Aydan Əsgərova, ingilis dilinin tədrisi üzrə mütəxəssis Diane Whaley və səfirliyin ictimai əlaqələr üzrə şöbəsinin mütəxəssisi Agne Kaufman ilə görüşüb.



İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı rayon Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən Heydər Əliyev siyasi irsinin təbliğat qrupu üzvlərinin iştirakı ilə E.Rzayev adına Əngəxaran kənd tam orta məktəbində ümummilli liderin 1993-cü il 3 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar "Xilaskar ömrü" adlı tədbir keçirib. Qəbələ rayon Mədəniyyət Mərkəzində mədəniyyət evləri və klub işçiləri ilə görüş təşkil edilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyindəki musiqi və incəsənət məktəblərində ilk dərs günü ilə əlaqədar silsilə tədbirlər təşkil olunub. Vətən müharibəsindəki tarixi Qələbə haqqında məlumat verilib, videoçarx təqdim olunub və "Zəfərə aparan yol" adlı mühazirə oxunub.

**Hazırladı: NURƏDDİN**

# Vətən müharibəsinin şəhid və şahidləri

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Rusif Quliyevin ailəsi və qazi Kamil İbrahimovla görüş təşkil edilib. Qazax Dövlət Rəsm Qalereyasında dərnək üzvlərinin əl işlərindən ibarət "Şəhidlər və şahidlər" adlı rəsm sərgisi keçirilib.



Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Qələbənin ilk addımları" mövzusunda tədbir keçirilib. Masallı Dövlət Rəsm Qalereyası və R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyi isə "Qələbəyə gedən yol" adlı tədbir təşkil ediblər. Qonaqlar qalereyada yerli rəssamların müharibə mövzusunda əsərlərindən ibarət sərgiyə baxış keçiriblər. Masallı rayon Mərkəzi Kitabxanası da İkinci Qarabağ müharibəsi mövzusunda tədbir təşkil edib. Yardımlı rayon Heydər Əliyev Mərkəzinin 3D kinozalında "Dəmir yumruq" filmi nümayiş olunub. Cəlilabad rayon Privolnoye kənd kitabxana filialı və kənd Mədəniyyət evinin birgə təşkilatçılığı ilə Suqovuşan qəsəbəsinin azad olunmasının ildönümü münasibətilə "Azad yurdum" adlı tədbir keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı rayon Mirzə Ələkbər Sabirin Ev-Muzeyində Cəbrayıl rayonunun işğaldan azad edilməsinin ildönümü (4 oktyabr) ilə əlaqədar "27 illik həsrətə son" mövzusunda dəyirmi masa təşkil olunub.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı və idarənin bir qrup əməkdaşı Vətən müharibəsi şəhidi Ziyadxan Əliyevin məzarını ziyarət ediblər. Beyləqan Rayon Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsinin ildönümü münasibətilə "Zəfər yolu" adlı tədbir keçirilib. Tədbirdə eyniadlı videoçarx nümayiş olunub.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində "Zəfər yürüşü" adlı ədəbi-bədii kompozisiya keçirilib. Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının müavini Günel Nurəddinova, regional idarənin rəisi Vüsal Hüseynov, qazilər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Xaçmaz Xalq teatrının aktyoru Elçin İbrahimovun və məktəblilərin ifasında vətənpərvərlik ruhlu şeirlər səsləndirilib. Xaçmaz Mədəniyyət Mərkəzi "Xəzər" instrumental ansamblının bədii rəhbəri Xanlar Baxışov və mərkəzin bədii rəhbəri Vüqar Nəsrullazadə "Sarı gəlin" xalq mahnısını, Xaçmaz şəhər Uşaq musiqi məktəbinin müəllimi Babək Əlisultanov "Xudayar təsnifi"ni, Saleh Novruzov isə "Qarabağ şikəstəsi"ni ifa edib.

Quba rayon MKS-nin Qorxmazoba kənd kitabxana filialının əməkdaşları Vətən müharibəsi iştirakçısı Elşad Əkbərovla görüşüb. MKS-nin Qəçrəş kənd kitabxanası Suqovuşanın azad edilməsinin ildönümü ilə əlaqədar tədbir keçirib.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzi, rayon Mədəniyyət Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi qaziləri İlham Məmmədov, Orxan Abdullayev və Mürşüd Quliyevlə görüş keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Ağdaş rayon MKS-nin Mərkəzi Kitabxanasında yaradılmış "44 gün Qarabağa doğru" adlı guşənin qarşısında məlumat günü keçirilib. Zərdab rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsinin iştirakçısı Toğrul Tağıyevi evində ziyarət ediblər. Göyçay rayon Heydər Əliyev Mərkəzində "Yarımçıq xatirələr" bədii filmi nümayiş olunub.




Sumqayıt Regional Mədəniyyət İdarəsi Abşeron rayon Mədəniyyət Mərkəzinin kollektivi Vətən müharibəsi şəhidi Səxavət Abbasovun ailəsini, idarənin Zəngilan rayon nümayəndəliyinin rəhbər işçiləri isə şəhid İsmayıl Mehdiyevin ailəsini ziyarət edib.

Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Zöhrab Adıgözəlov və Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov Vətən müharibəsi şəhidi Nağı Həşimovun anım günü münasibətilə məzarını ziyarət ediblər. Şəmkir rayon MKS Vətən müharibəsində şəhid olan oğullarımızın xatirəsinə Əhməd Cavad adına tam orta məktəbin 1-ci sinif şagirdləri ilə birgə "Vətənin mübariz oğulları" adlı tədbir keçirib.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Mərkəzi Kitabxanasında Vətən müharibəsinin ildönümünə həsr olunmuş film nümayiş etdirilib. Oğuz rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsinin ildönümü münasibətilə esse müsabiqəsi keçirilib. Əmrah Nəbiyev adına Tərkeş kənd tam orta məktəbinin müəllimi Xatirə Nuralıyeva müsabiqənin qalibi adını qazanıb. Şəki şəhər, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarının bir sıra mədəniyyət müəssisələrində Vətən müharibəsinin ildönümü ilə bağlı tədbirlər təşkil olunub.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Biləsuvar rayon Heydər Əliyev Mərkəzinin kollektivi Vətən müharibəsi şəhidi Ruslan Qurbanovun ailəsini ziyarət edib. Neftçala rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin 1 saylı şəhər kitabxana filialının əməkdaşları isə Vətən müharibəsi şəhidi Pəncalı Hüseynovun ailəsi ilə görüşüblər.

Gəncə Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Gəncə, Naftalan şəhər, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayonlarının bir sıra mədəniyyət müəssisələrində haqq savaşımızın ildönümü ilə bağlı tədbirlər keçirilib.

№75 (1852)
6 oktyabr 2021
www.medeniyyet.az

# Azad olunmuş ərazilərdəki abidələrin vəziyyəti barədə məruzə edilib

BMT-nin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"ı üzrə Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dördüncü dövr məruzəsi təqdim olunub.

Onlayn formatda gerçəkləşən iclasda Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli iştirak edib.

Dövlət Xidmətinin rəisi Azad Cəfərli çıxışı zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğalı nəticəsində ölkəmizin humanitar, iqtisadi və mədəni irsin dağıdılması kimi böyük fəlakətlə üzləşməsi haqqında ətraflı məlumat verib. Vurğulayıb ki, 30 illik işğal nəticəsində Azərbaycan xalqına məxsus tarixi abidələr, mədəni irs obyektlərinin əksəriyyəti vandalizmə məruz qalıb. Bəşəri dəyərləri heçə sayan Ermənistan Azərbaycanın mədəni mirasını dağıdıb, talan edib, yaxud da mənimsəyib.

# Nizaminin 880 illiyi münasibətilə Gəncədə 880 ağac əkilib

Oktyabrın 1-də "Nizami Gəncəvi İli" çərçivəsində Gəncədə ağacəkmə aksiyası keçirilib. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və "Kapital Bank"ın birgə təşkilatçılığı ilə Gəncə şəhərində, Nizami Gəncəvi məqbərəsinin ətrafında dahi şairin 880 illik yubileyini simvolizə edən 880 şam ağacı əkilib.



Aksiyada Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Gəncə Şəhər İcra Hakimiyyəti və "Kapital Bank"ın nümayəndələri iştirak ediblər.

Dövlət Xidmətinin Mədəni irsin qorunması şöbəsinin müdiri Ruslan Ənvərli mətbuata açıqlamasında bu təşəbbüsün "Nizami Gəncəvi İli"nə növbəti töhfə olduğunu bildirib: "Qüdrətli söz və fikir ustadının insanları əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan yaradıcılığı bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunub. Bu il həm ölkə daxilində, həm də xaricdə geniş tədbirlərlə qeyd olunur".

Vurğulanıb ki, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti də "Nizami Gəncəvi İli"nə öz töhfəsini verməkdə davam edir. Mütəfəkkir şairin yubileyi Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən qoruqlarda, xüsusilə Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunda geniş şəkildə qeyd olunur. Bu il həmçinin Dövlət Xidməti tərəfindən Nizami Gəncəvi məqbərə kompleksinin də pasportu və mühafizə zonası hazırlanaraq təsdiq edilib.

# "Mədəni kənd – mədəni mühit" layihəsinin növbəti tədbiri

Sabirabad Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə həyata keçirilən "Mədəni kənd – mədəni mühit" layihəsi davam edir. Layihə çərçivəsində Sabirabad rayon Mədəniyyət Mərkəzi Yeni Güdəcühür qəsəbə Klub-icma mərkəzində "Zəfər qazanmış ölkənin qalib günləri" adlı tədbir təşkil olunub.



Cəbrayıl rayonundan məcburi köçkünlərin də iştirak etdiyi tədbirdə regional idarənin rəisi Fərid Qurbanzadə çıxış edərək Vətən müharibəsində xalqımızın əldə etdiyi şanlı Qələbədən danışıb, Cəbrayıl sakinlərinə öz dədə-baba yurdlarının işğaldan azad olunmasının ildönümü münasibətilə təbriklərini çatdırıb.

"Tokio-2020" XVI Yay Paraolimpiya Oyunlarının medalçısı Cəbrayıl rayonundan olan Pərvin Məmmədov qalibiyyət yolundan bəhs edib, tədbirin təşkilinə görə təşəkkürünü bildirib.

Vətən müharibəsi şəhidlərinə həsr olunmuş guşəyə, dərnək üzvlərinin rəsm əsərlərinin və Pərvin Məmmədovun qazandığı medal və fəxri fərmanların nümayiş olunduğu sərgiyə baxış keçirilib.

Bədii hissədə kənd məktəbliləri vətənsevərlik ruhlu şeirlər səsləndiriblər. "Bir ölər, min dirilərik!" adlı kompozisiya nümayiş etdirilib.

# Qarabağ torpağını dünyanın behişti adlandıran mütəfəkkir

## Mir Həmzə Nigarinin yaradıcılığına həsr olunmuş simpozium

*əvvəli səh. 1-də*

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mir Həmzə Nigarinin poeziyası və fəlsəfəsindən danışan E.Babayev qeyd edib ki, Qarabağda doğulan, lakin sonralar Türkiyədə məskunlaşan Mir Həmzə Nigari əsərlərində öz yurduna sevgisini daim ifadə edib. Qarabağdan xəbər versə, küləklərə canını qurban etməyə hazır olan Nigari bu torpağı dünyanın behişti adlandırır. Təsadüfi deyil ki, insanlar Qarabağın işğal altında olduğu dövrlərdə bu şeirlərlə təsəlli tapıb, öz həsrətlərini ovundurmağa çalışıblar. Vurğulanıb ki, çoxsaylı yetirmələri olan mütəfəkkir şair iki qardaş ölkə arasında hələ o dövrdə mənəvi bağlılıq yaradan simalardandır.

Daha sonra çıxış edən TADİV-in sədri, professor Aygün Attar böyük mütəfəkkir Seyid Nigarinin həyat və yaradıcılığı, fəlsəfəsi haqqında ətraflı məlumat verib.

Simpoziumun plenar bölümündə təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Xalq şairi Nəriman Həsənzadə, Mir Həmzə Seyid Nigari Qarabağı nəslinin davamçısı Mir Sədi Məmmədoğlu çıxış ediblər.



Çıxışlarda Azərbaycan ilə Türkiyənin tarixi birliyindən söz açılıb, Vətən müharibəsi zamanı qardaş Türkiyənin Azərbaycanın yanında olduğu vurğulanıb. Mir Həmzə Qarabağı Nigarinin həyat və yaradıcılığından danışan natiqlər onun əsərlərinin əhəmiyyətini vurğulayıblar. Qeyd edilib ki, şair əsərlərində doğma yurda sevgi ilə yanaşı, insanları mənəvi saflığa, xeyirxahlığa çağırıb.

Bədii hissədə BDU tələbələrinin ifasında Mir Həmzə Seyid Nigari Qarabağinin divanından nümunələr səsləndirilib.

Beynəlxalq simpozium iki bölmədə işini davam etdirib. Mir Həmzə Nigarinin yaradıcılığına və fəlsəfəsinə həsr olunmuş elmi məruzələr dinlənilib.

## Simpozium çərçivəsində konsert proqramı

Oktyabrın 3-də görkəmli sufi şairi Mir Həmzə Qarabaği Nigarinin irsinə həsr olunmuş simpozium çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzində konsert proqramı keçirilib.



Tədbirdə şairin həyat və yaradıcılığı haqqında qısa film nümayiş olunub.

Konsert proqramında tarda Xalq artisti Elçin Həşimov və kamançada Əməkdar artist Elnur Əhmədovun müşayiəti ilə Xalq artisti Mənsum İbrahimovun ifasında "Misri" kompozisiyası, Əməkdar artist Babək Niftəliyevin ifasında "Şuşanın dağları" mahnısı səsləndirilib. Azərbaycan Televiziyasının solisti Elton Hüseynəliyevin ifasında sözləri Mir Həmzə Qarabağı Nigariyə, musiqisi Aynur Adilqızına aid "Murabba" mahnısı təqdim edilib.

Ud ifaçısı Mircavid Cəfərovun müşayiətində beynəlxalq müsabiqələrin qalibi Hüseynağa Aslanov şairin qəzəllərini oxuyub.

# Vətən müharibəsində hərbçi kimi iştirak etmiş jurnalistlərlə görüş



Oktyabrın 4-də Bakı İdman Sarayında davam edən Milli Kitab Satış-Sərgisi çərçivəsində 44 günlük Vətən müharibəsində hərbçi kimi iştirak etmiş jurnalistlərlə görüş keçirilib.

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, Vətən müharibəsində 30-dək jurnalist hərbçi olaraq döyüşüb. "Onlar qələmlərini silahla əvəzləyərək Vətənin çağırışına səs vermiş həmkarlarımızdır. Mətbuat Şurası müharibə müddətində onların valideynləri, ailə üzvləri ilə daim təmasda oldu. Biz gördük ki, onlar öz övladları ilə necə fəxr edirlər. Əlbəttə, hər birimiz fəxr və qürur hissi keçirirdik", - deyən Ə.Amaşov vurğulayıb ki, Vətən müharibəsinin ildönümü ilə əlaqədar müharibədə iştirak etmiş, eləcə də müharibəni işıqlandırmış jurnalistlərlə bağlı tədbirlər nəzərdə tutulub. O, həmçinin media təmsilçilərinin xatirələrinin yer aldığı kitabın nəşrinin planlaşdırıldığını diqqətə çatdırıb və jurnalistlərdən cəbhə xatirələrini qələmə alaraq şuraya göndərməyi xahiş edib.

"Qanun" nəşrlər evinin rəhbəri Şahbaz Xuduoğlu Mətbuat Şurasının irəli sürdüyü təşəbbüsə dəstək olaraq həmin kitabın nəşrini həyata keçirəcəklərini deyib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Anar Eyvazov çıxışında Vətən müharibəsinin informasiya savaşı mərhələsindən, jurnalistlərin göstərdikləri fədakarlıqdan söz açıb.

Ə.Amaşov Müdafiə Nazirliyinin Mətbuat xidmətinin 44 günlük müharibə zamanı operativ çalışdığını vurğulayaraq, xidmətin MŞ tərəfindən xüsusi diplomla təltif edildiyini vurğulayıb və diplomu A.Eyvazova təqdim edib.

Vətən müharibəsinin iştirakçısı olmuş jurnalistlərdən – Pərviz Aslanov, Məğrur Əliyev, Fərid Teymurxanlı, Nurlan Əliməmmədov, Nahid Salayev, Mahal Məmmədov və digərləri çıxışlarında döyüş xatirələrini bölüşərək bildiriblər ki, torpaqlarımızın azadlığı uğrunda savaşın iştirakçısı olmaq onlar üçün böyük qürurdur. Görüşdə müharibədə iştirak etmiş bir qrup jurnalistə Mətbuat Şurasının təsis etdiyi "Qələmdən süngüyə" mükafatı təqdim olunub.

# Milli Qəhrəman Yuri Kovalyovun büstünün açılışı olub

Paytaxtın Nizami rayonunda 229 nömrəli tam orta məktəbdə Milli Qəhrəman Yuri Kovalyovun (1965–1991) büstünün açılış mərasimi olub. Vaxtilə Y.Kovalyovun təhsil aldığı məktəb onun adını daşıyır.




Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə rəsmilər, Milli Qəhrəmanın yaxınları iştirak ediblər. Mərasim iştirakçıları əvvəlcə 44 günlük Vətən müharibəsinə və Zəfər tariximizə həsr edilmiş rəsm sərgisi ilə tanış olublar. Məktəbin məzunu olmuş 7 şəhidin əziz xatirəsinə ehtiram əlaməti olaraq ağaclar əkilib.

Milli Qəhrəman Yuri Kovalyovun qardaşı Vitali Kovalyov onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib, eləcə də büstün hazırlanmasına , tədbirin təşkilinə görə minnətdarlıq edib.

Sonra büstün açılışı olub, Milli Qəhrəman Yuri Kovalyov haqqında videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, 1990-cı ildən Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilən Y.Kovalyov Birinci Qarabağ müharibəsində mərdliklə vuruşub. 1991-ci il 3 oktyabrda Xocavənddə növbəti hərbi tapşırıqdan qayıdarkən düşmənlə döyüşdə şəhid olub. Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına (1992) layiq görülüb.

Mərasimdə YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycanda Rus İcmasının rəhbəri, YAP İdarə Heyətinin üzvü, deputat Mixail Zabelin, Bakı Şəhər Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Rasim Musabəyov və başqaları çıxış ediblər. Mərasimə Milli Qəhrəmanın qızının və nəvəsinin ifasında bədii hissə ilə yekun vurulub.

# Kitabın təbliğinə yönələn hər təşəbbüs təqdirəlayiqdir

## Amma kitab alanların da nəşriyyatlardan gözləntiləri var

Texnologiya nə qədər inkişaf edib, vizual bilgilər həyatımızı nə qədər çox işğal etsə də, kitabla birbaşa rabitəni, onun verdiyi zövqü, sözsüz ki, əvəz edə bilməz. Kitabla görüş hər zaman və hər yerdə xoşdur, kitabın təbliğinə yönələn hər təşəbbüs təqdirəlayiqdir.

Xəbər verildiyi kimi, oktyabrın 1-dən Bakı Əl Oyunları Sarayında Milli Kitab Satış-Sərgisi keçirilir. Oktyabrın 5-də biz də sərgiyə baş çəkib həm alıcılar, həm də naşirlərlə həmsöhbət olduq. Müşahidəmə əsasən bir məqam üzərində xüsusilə dayanmaq istədim.

Bu gün əksər nəşriyyat-poliqrafiya müəssisələri, kitab yayımı işini təşkil edən şirkətlər kitab bazarında daha çox əlavə dərs vəsaitlərinə – test və sorğu toplularına, dərs vəsaitlərinə, abituriyent hazırlığı üçün materiallara üstünlük verirlər. Bu da normaldır. Çünki nəticə etibarilə nəşriyyatlar müştəriləri üçün işləyirlər. Amma baxır necə. Qiymət və keyfiyyət arasında ciddi fərq ilə. Hərçənd alıcılıq qabiliyyətinin üstün olduğu bu bazarda yetərli rəqabət var və bu hər gün artmaqdadır. Amma təəssüf ki, bu rəqabəti nə qiymət endirimində, nə də müəllif rəngarəngliyində görə bilmirik. Bu kimi fikirləri stendlər önündə dolaşan və daha çox test toplularını vərəqləyən valideynlərdən də eşitdim. Vəziyyət belə olduqda bazardakı başqa bir boşluq da bədii ədəbiyyat, xüsusən uşaqlar üçün nümunələrdə üzə çıxır. Məsələn, məktəbəqədər və məktəb uşaqları üçün dərs, dərsdənkənar ədəbiyyat, xüsusən nağıl və hekayə kitablarında bir neçə vacib nüans qətiyyən nəzərə alınmır. Dil faktoru, illüstrativ tərtibat, mövzu rəngarəngliyi və aktuallığı ümumən unudulur.

Bu mənada məşhur kitab yayımı şirkətlərindən birinin satış bölümündə uşaqları cəlb etmək üçün maraqlı, nağıl qəhrəmanı qiyafəsində sərgiyə rəngarənglik qatan gənc könüllü Kamal Abdullayevin fikirləri anlaşılan idi. O, xüsusən Azərbaycan dilində çap olunan nağıl kitablarının tərtibat və dil məsələlərindən narazılıq etdi: "Ölkəmizdə kifayət qədər uşaqlar üçün nümunələr çap edən nəşriyyatlar var və biz bu sahədə rəqabəti daha çox görmək istərdik. Baxın, bu "Azərbaycan xalq nağılları"dır. Amma üz qabığında da, içində də əyləncəli, gözoxşayan, bir növ oxucunu cəlb edən detalları nəzərə almayıblar. Məncə, bu məqam üzərində xüsusilə dayansaq, daha yaxşı olar".

"Mücrü" nəşriyyatının direktor müavini, yazar Cəlil Cavanşir sərgiyə dərslik və 100-dən artıq bədii kitabla qatıldıqlarını deyir: "Bizim stendin ən çox tələb olunan kitabı bu yaxınlarda ərsəyə gətirdiyimiz "Bir saata tarix" seriyasıdır. Digər nümunələr də maraqla alınır. Müşahidəmə əsasən deyə bilərəm ki, daha çox gənc nəsil kitab alıcısına çevrilib və yəqin ki, bu da onların təhsil, daha çox xaricə gedib-gəlməsi, kitab ənənəsini görmələri və onu bizdə də tətbiq etmək istəkləri ilə bağlıdır".

Dərslik kitablarının çapı və yayımı ilə məşğul olan "Güvən" nəşriyyatının təmsilçisi Anar Şıxcanov isə satış-sərgidə endirimli qiymətlərlə təqdim etdikləri kitablara böyük marağın olduğunu bildirir.

Onlayn kitab satışı ilə məşğul olan Tariyel Əliyev də məmnun görünürdü. Deyir ki, bir neçə gündə gözlədiyimdən də çox kitab satdım: "Endirimli kitablarla yanaşı oxucular keyfiyyətli nümunələrə də üstünlük verirlər. Tərtibat, üz qabığı da onlar üçün maraqlıdır. Təbii ki, büdcəsinə uyğun olanı axtaranlar da çoxdur. Ümid edək ki, bu kimi sərgilər həm kitabın kütləviləşməsinə dəstək olacaq, həm də bazara keyfiyyətli və qiyməti münasib çap məhsulları çıxacaq".

Tədbirin təşkilatçısı, naşir Şahbaz Xuduoğlu kitabla bağlı ən müxtəlif formatlı sərgilərin daha çox naşirlərin işinə yaradığını və hər qiymətə kitab almaq istəyən oxucu ilə dialoqu baxımından əhəmiyyətli olduğunu bildirdi: "Biz bundan əvvəl də ölkəmizdə təşkil olunan sərgilərdə iştirak etmişik və bu, bizim işimizin inkişafına təkan verib".

Sonda onu da deyim ki, poliqrafiya müəssisələrinin bir növ podiumu xarakteri daşıyan bu kimi sərgilərdə iştirak edənlər bir məqamı xüsusilə diqqətdə saxlamalıdır: kitab məlumat vasitəsi olmaqla yanaşı, həm də nəsildən-nəslə ötürülə biləcək yaxşı mirasdır. Bu mənada naşirlər həm yaxşı kitabçı, həm də marketinqçi olmalıdırlar. Əks halda, qalan oxucunu da, kitab bazarında yeri də itirərlər...

**HƏMİDƏ**

# "Fizika və lirika" silsiləsindən – "Nizami Gəncəvi irsi və təbiət" mövzusunda konfrans

Prezident İlham Əliyev tərəfindən 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi dahi şairin irsinin təbliği və tədqiqi işinin yeni mərhələyə yüksəlməsinə təkan verib.

Oktyabrın 1-də Mədəniyyət Nazirliyinin dəstəyi, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi irsi və təbiət" mövzusunda elmi konfrans keçirilib. AMEA-nın "Fizika və lirika" silsiləsindən VII konfrans Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda gerçəkləşib. Tədbir çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən Nizami Gəncəvi yaradıcılığına həsr olunmuş sərgi də təşkil edilib.





AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli konfransı açaraq "Nizami Gəncəvi İli" çərçivəsində akademiyanın bölmələrində silsilə tədbirlərin keçirildiyini bildirib. "Nizami Gəncəvi irsi və təbiət" mövzusunda keçirilən konfransın nizamişünaslığa töhfə olacağını deyən akademik tədbirin Nizami yaradıcılığı ilə bağlı yeni tədqiqatlara zəmin yaradacağını vurğulayıb.

AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova çıxışında qeyd edib ki, dünyanın qüdrətli ədib və filosoflarından olan Nizaminin irsi, o cümlədən elmi dünyagörüşü səkkiz əsrdir müxtəlif tədqiqatların mövzusudur. Ədəbiyyatşünaslar, sənətşünaslar və digər sahələrin mütəxəssisləri Nizami irsini dərindən tədqiq ediblər. Onun əsərlərində təbiət, ətraf mühit, 50-yə qədər heyvan növü, kol və dərman bitkiləri, anatomiya, fiziologiya, mikroorqanizmlər, maddələr mübadiləsi və s. proseslərlə bağlı olduqca qiymətli fikirlərə rast gəlinir. Akademikin sözlərinə görə, dahi mütəfəkkir əsərlərində bugündək bir çox alimlərə məlum olmayan, Azərbaycandan kənar ölkələrdə yetişən bitkilər barədə məlumatlar da təqdim edib. İ.Hüseynova şairin yaradıcılığında təbiətlə bağlı fikirlərin dərindən araşdırılması üçün Ədəbiyyat İnstitutu ilə birgə dissertasiya işinin yazılmasının da faydalı olacağını diqqətə çatdırıb.

Tədbirdə Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə "Nizami Gəncəvi yaradıcılığında ümumbəşəri dəyərlər" mövzusunda çıxış edib. O, Nizaminin böyük humanist şair kimi hər zaman insan ləyaqətini tərənnüm etdiyini vurğulayıb. "Nizami Gəncəvinin dahiliyi həm də ondan ibarətdir ki, o, müasir dövrdə baş verən ekoloji böhrana öz dövründən sanki proqnoz verərək baxmış, problemlərin həlli yoluna işarə etmişdir", - deyən M.Qafarzadə bildirib ki, dahi şair bütün əsərlərində insanları təbiəti sevməyə, ona qayğıkeş münasibət göstərməyə çağırıb. Canlı təbiətin qorunması mövzusu Nizaminin "Yeddi gözəl", "Xosrov və Şirin", "Leyli və Məcnun" və digər poemalarında öz əksini tapıb.

Şöbə müdiri onu da diqqətə çatdırıb ki, Mədəniyyət Nazirliyinin xətti ilə dahi şairin "Xəmsə"si Türkiyədə türkcə beş cilddə nəşr olunub. Həmin kitablar konfransda təqdim olunub. Həmçinin Nizaminin və qəhrəmanlarının əks olunduğu xalça nazirlik adından AMEA-ya hədiyyə edilib.

Konfrans işini məruzələrlə davam etdirib. AMEA prezidenti katibliyinin rəisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Əmirovun "Nizami Gəncəvinin elmi dünyagörüşü və elmə münasibəti", Ədəbiyyat İnstitutunun əməkdaşları, filologiya üzrə fəlsəfə doktorları Zəhra Allahverdiyevanın "Nizami Gəncəvinin nəsil şəcərəsi və həyatı" və Təhminə Bədəlovanın "Nizami Gəncəvinin yaradıcılıq yolu", Fiziologiya İnstitutunun baş direktoru, biologiya elmləri doktoru, professor Ulduz Həşimovanın "Nizami Gəncəvi yaradıcılığında insan sağlamlığı məsələləri", eləcə də Botanika İnstitutunun Etnobotanika laboratoriyasının müdiri, biologiya elmləri doktoru, professor Səyyarə İbadullayevanın "Nizaminin təbiət aləmi və təbiət sevgisi" mövzularında məruzələri dinlənilib.

# Antrakt bitdi...



Nəhayət ki, uzun, üzücü, ən əsası isə, məcburi antrakt bitdi, müvafiq qaydalar əsasında fəaliyyətinə imkan verilən mədəniyyət ocaqları sırasına teatrlar da qoşuldu. İlyarımdan çox müddətdə səhnələri qaranlığa qərq olan binaların, necə deyərlər, çırağı yandı.

Oktyabrın 1-dən işə başlayan teatrlar fərqli formatlarda (tam heyət, yaxud bədii şura qismində) toplaşmaqla yaradıcılıq planlarını, məşq qrafiklərini, ilk nümayiş tarixlərini müzakirə etdilər. Amma ilk günlərin həyəcanını tamaşaçı ilə yaşayanlar da oldu.

Məsələn, oktyabrın 2-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının yaradıcı heyəti səhnədə, tamaşaçılar isə zalda yerini aldılar. Tamaşaçılar arasında Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və səfirlik əməkdaşları, Mədəniyyət Nazirliyinin nümayəndələri də var idi.

Teatr təmsilçiləri çoxdan gözlədikləri görüşə repertuardakı ən baxımlı nümunələrdən olan "Evlənmə" ilə gəlmişdilər. N.Qoqolun məşhur əsərinin tamaşasında teatrın sevilən aktyorları maraqlı oyunları ilə göz oxşayıblar. Rejissor Emin Mirabdullayevin quruluş verdiyi tamaşa maraqla qarşılanıb.

Nümayiş və ondan öncə tamaşaçılar qarşısına çıxan teatrın baş rejissoru, Xalq artisti Aleksandr Şarovski əlamətdar gün, çoxdan gözlənilən görüş münasibətilə teatrı da, teatrsevərləri də təbrik edib. Bundan sonra da fərqli səhnə nümunələri ilə tamaşaçılara əsl səhnə, teatr zövqü yaşadacaqlarına inamını da dilə gətirib. Pandemiyasız, məhdudiyyətsiz, qapanmasız zəngin teatr mövsümü arzusunu da ifadə edib.

Gecənin ən maraqlı və yaddaqalan bir məqamı da tamaşanı izləyən Vətən müharibəsi veteranlarının aktyorların alqış sədaları ilə səhnəyə dəvət edilməsi olub.

İlk günün həyəcanını canlı ünsiyyət, səhnədən tamaşa ilə qeyd edən kollektivlərdən biri də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı idi. 90-cı yubiley mövsümünü yaşayan sənət ocağı "Cırtdan" tamaşası ilə teatrsevərlərin qarşısına çıxıb. Mirmehdi Seyidzadənin "Cırtdan" mənzum nağıl-pyesi əsasında hazırlanan (səhnələşdirən Rəhman Əlizadə) tamaşanın quruluşçu rejissoru Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Oqtay Zülfüqarovdur.

İlk günün hər iki seansını (12:00 və 14:00) Vətən müharibəsi şəhidi və qazilərinin övladları üçün hədiyyə edən teatr təmsilçilərinin bu addımı balacalar tərəfindən maraqla qarşılanıb.

Qusar Dövlət Ləzgi Dram Teatrı da oktyabrın 1-dən qapılarını tamaşaçılarının üzünə açıb. Teatrda yaradıcılıq toplantısından savayı, tamaşaçılar üçün məşq-nümayiş də həyata keçirilib. Beləcə, tamaşaçılarla teatr kollektivi ilk günü birlikdə keçirməyə çalışıblar.

Gəncə Dövlət Kukla Teatrı 36-cı teatr mövsümünün ilk nümayişinə 1 oktyabrdan start verib. Teatrda Qrim qardaşlarının "Bremen musiqiçiləri" nağılının tamaşası təqdim olunub. Tamaşanın quruluşçu rejissoru Xudayət Əsgərov, quruluşçu rəssamı Əntiqə Bədirova, musiqi tərtibatçısı Mahirə Haqverdiyevadır. Gəncəli kuklaçılar da ilk nümayişlərini Qarabağ müharibəsi şəhidləri və veteranlarının yadigarları üçün ediblər. Sonda Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov teatrın bir qrup əməkdaşını diploma ilə təltif edib.

HƏMİDƏ

# Qara Qarayevin Ev-Muzeyində Beynəlxalq Musiqi Günü

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Qara Qarayevin Ev-Muzeyində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə Beynəlxalq Musiqi Günü (1 oktyabr), BMA-nın 100 illiyi və ev-muzeyin açılışının 3 illiyi münasibətilə tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. O, konsertin rəhbəri, BMA-nın professoru, Əməkdar müəllim Gülnarə Acalovanı akademiyanın 100 illiyi münasibətilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmasına görə təbrik edib.

Qara Qarayevin Ev-Muzeyinin müdiri Züleyxa Bağırova-Qarayeva muzeyin yaradılmasında əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Daha sonra Gülnarə Acalovanın rəhbərliyi ilə konsert proqramı təqdim edilib. Respublika və beynəlxalq müsabiqələr laureatları – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Mahir Tağızadə (vokal), Zəhra Cahan Şıxəliyeva (fortepiano), Emin İsmayılov (vokal), Cəmalə Abdinzadə (fortepiano), Şükufə Rəsulova (violin), Fatimə Əliyeva (fortepiano), Orxan İbrahimov (klarnet), Əzizə Ağazadə (fortepiano), Orxan Cumayev (cello) və Leyla Zeynalovanın (fortepiano) ifalarında Üzeyir Hacıbəyli, Qara Qarayev, Cövdət Hacıyev, Zakir Bağırov və Rüzgar Əhmədzadənin əsərlərindən ibarət konsert proqramı maraqla qarşılanıb.

Qeyd edək ki, Beynəlxalq Musiqi Günü UNESCO nəzdində fəaliyyət göstərən Beynəlxalq Musiqi Şurası tərəfindən 1973-cü ildə Lozannada keçirilən Baş Assambleyada təsis olunub. 1975-ci ildən hər il qeyd olunan musiqi bayramında müxtəlif konsert proqramları, bəstəkarlarla, musiqi ifaçıları və musiqişünaslarla görüşlər təşkil edilir.

# Bakıda musiqi və rəqs konqresi keçirilib



Oktyabrın 1-dən 3-dək Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) təşkilatçılığı ilə VIII Beynəlxalq Musiqi və Rəqs Konqresi keçirilib. Türk dünyasından bir sıra universitetlərin iştirakı ilə gerçəkləşən konqresə ümumilikdə doqquz ölkədən 200-dən çox nümayəndə qatılıb.

Konqresin açılış mərasimi Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Daha sonra BMA-nın 100 illik yubileyinə həsr olunmuş videoçarx təqdim olunub.

Muğla Sıtkı Koçman Universitetindən professor Kürşad Gülbeyaz giriş sözündə tədbir haqqında məlumat verib. O, BMA-nın 100 illik yubileyi münasibətilə təbriklərini çatdıraraq konqresin işinə uğurlar arzulayıb, layihənin ərsəyə gəlməsinə dəstək olanlara təşəkkürünü bildirib.

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxışı zamanı Türk dünyası və onun birliyindən, habelə Azərbaycanın şanlı Zəfərindən, bu qələbə üçün öz dəstəyini əsirgəməyən qardaş Türkiyə ilə dost münasibətlərdən söz açıb.

Azərbaycan Milli Konservatoriyasının (AMK) elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova, Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsini icra edən Xalq artisti Nailə Məmmədzadə, Muğla Sıtkı Koçman Universitetinin rektoru, professor Hüseyin Çiçek, Sakarya Universitetinin rektoru Fatih Savaşan,



Qırğızıstan Ənənəvi Musiqi Fondunun prezidenti Adelya Karmaliyeva, Antalya Mədəniyyət və Təhsil Vəqfi Universitetinin rektoru, professor Kamile Perçin Akgül, Xalq artisti Roza Cəlilova çıxış edərək konqresin təşkilində əməyi keçənlərə təşəkkürlər ediblər. Digər ölkələrdən olan iştirakçılar konqresə videobağlantı ilə qoşulublar.

Tədbirin sonunda BMA-nın Solo oxuma və opera hazırlığı kafedrasının baş müəllimi, Əməkdar artist İlham Nəzərov, vokalçı Tofiq Zeynalov, respublika və beynəlxalq müsabiqələr laureatı, pianoçu Nərgiz Kəngərlinin ifaları təqdim olunub.

Konqres çərçivəsində ümumilikdə 114 çıxış və məruzə dinlənilib, 28 musiqi nömrəsi təqdim edilib, 3 rəsm sərgisi reallaşıb.

# Bülbülün xatirəsinə həsr olunan musiqi gecəsi

Bülbülün Memorial Muzeyində "Cult Baku" klubu ilə birgə böyük müğənninin xatirəsinə həsr olunan musiqili gecə keçirilib.

Oktyabrın 1-də gerçəkləşən tədbiri giriş sözü ilə açan muzeyin direktoru Fərqanə Cabbarova Azərbaycan vokal sənətinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti Bülbülün (1897-1961) həyat və yaradıcılığından, yeni fəaliyyətə başlayan Bülbülün Şuşadakı Ev-Muzeyindən bəhs edib.

Musiqili gecə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi, respublika və beynəlxalq müsabiqələr laureatı Sübhan Rüstəmovun "Sevgili canan" romansının ifası ilə açılıb. Daha sonra Azərbaycan Milli Konservatoriyasının tələbələri, respublika və beynəlxalq müsabiqələr laureatları Solmaz Rəhimova, Hüseyn Nağıyev, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri Zəhra Qurbanova, Vaqif Qurbanov, Rəvan Paşazadə, 36 nömrəli Uşaq musiqi məktəbinin şagirdi Adəm Eminli, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi Sübhan Tahirov, Bakı Xoreoqrafiya Akademiyasının müəllimləri Səma Xəlilzadə, Rəna Novruzbəylinin ifaları dinlənilib.

Tədbir "Xarıbülbül" muğam qrupunun – Ülkər Abdullayeva (xanəndə), Cavanşir Rüstəmbəyli (tar), Əli Rüstəmbəylinin (kamança) ifası ilə başa çatıb.

Musiqili gecədən sonra qonaqlar muzeylə tanış olublar.

# Böyük ekranın cazibəsi

Xəbər verdiyimiz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah müvafiq qaydalara riayət etmək, o cümlədən tamaşa zalının ümumi tutumunun 50 faizindən çox olmamaq şərtilə oktyabrın 1-dən teatr, kinoteatr və konsert müəssisələrinin tamaşaçıları qəbul etməsinə icazə verib. Bununla da uzun fasilədən sonra teatrsevərlərin böyük səhnə, kinomanların isə böyük ekran həsrətinə son qoyuldu.

Kinosevərlərin ən çox üz tutduğu Nizami Kino Mərkəzi və "CinemaPlus" kinoteatrlar şəbəkəsi ilə əlaqə saxlayıb yeni şəraitdə tamaşaçıları hansı yeniliklərin gözləməsi ilə maraqlandıq.

Nizami Kino Mərkəzinin direktor müavini Arzu Əhədova bildirdi ki, bu nümayiş məkanında artıq oktyabrın 1-dən fəaliyyət bərpa olunub: "Kinoteatrda dezinfeksiya işləri aparılıb. Əməkdaşlarımız böyük sevinclə işə qayıdıblar. Yeni filmlərimiz oktyabrın 7-dən təqdim olunacaq. Hazırda pandemiyadan əvvəl cəmi bir neçə gün nümayiş olunan və tamaşaçıların səbrəsək gözlədiyi filmləri nümayiş etdiririk".

Direktor müavini tamaşaçıların COVİD pasportu təqdim edərək kinoteatra daxil ola biləcəklərini deyir. Bildirir ki, bu günlərdə kinohəvəskarları "Ağanatiq 2", "Sevgi romanı" və "Xoxanlar" filmlərini izləyə bilərlər. Seanslar barədə mərkəzin saytı vasitəsilə məlumat almaq mümkündür.

"CinemaPlus" kinoteatrlar şəbəkəsi Müşahidə şurasının sədri Zaur Darabzadə bildirdi ki, şəbəkəyə daxil olan bütün kinoteatrlarda fəaliyyət bərpa olunub.




Döyüş filmləri həvəskarları kinoteatrlar şəbəkəsində dünya premyeraları 2021-ci ilin sentyabr ayında keçirilən ABŞ və Böyük Britaniya kinematoqrafçılarının birgə ərsəyə gətirdiyi "Ölmək vaxtı deyil", "Baş qəhrəman", "Cəngəllikdə kruiz" filmlərini izləyə biləcəklər. Həmçinin yerli kinokomediyalardan "Gələrsən, görərsən", "Şabaş" da filmsevərlərin ixtiyarındadır.

LALƏ

# "Bu torpaqlar cənnətdir..."

Vətənin dar günündə dadına çatan, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə qoşulan igidlərimizdən daha birini – Vaqif Vüqar oğlu İsmayılzadəni oxucularımıza tanıdırıq.



Vaqif 1996-cı il noyabrın 6-da Beyləqan rayonunun 1-ci Şahsevən kəndində anadan olub. Ailəsi əslən Cəbrayıl rayonunun Horovlu kəndindəndir. 1993-cü ildə düşmən Cəbrayıl rayonunu işğal etdiyi üçün onlar öz dədə-baba yurdundan qaçqın düşərək Beyləqan rayonuna pənah gətiriblər. Vaqif rayonun Fazil Miriyev adına Araz qəsəbə tam orta məktəbində təhsilə başlayır. O, uşaqlıqdan hərbi sahəsinə maraq göstərir, ata yurdunun düşmən tapdağı altında qalması ilə barışmırdı.

2015-ci ildə orta məktəbi bitirən Vaqif Sumqayıt şəhər N saylı hərb hissəsində xidmətə başlayır. Xidmət zamanı fəallığı və nizam-intizamı ilə seçilir. Komandirlərin verdiyi tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə dəfələrlə təşəkkürnamə ilə mükafatlandırılır. Xidməti başa vurduqdan sonra Beyləqan rayonunda hərbi polis kimi fəaliyyət göstərir.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda Vaqif də qəhrəman oğullarımız kimi odlu-alovlu səngərdə yerini alır. Müharibənin ilk günlərində bir sıra döyüşlərdə iştirak edir. Onlarla yaralı əsgər və zabitlərimizi döyüş bölgəsindən çıxarır. Oktyabrın 21-də Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə yaralı zabitimizi döyüş meydanından çıxarırkən şəhidlik zirvəsinə ucalır. Neytral ərazidə qalan nəşini yalnız oktyabrın 25-də götürmək mümkün olur.

Şəhidin atası Vüqar İsmayılov qeyd edir ki, Vətən müharibəsi başlayanda Vaqif üç dəfə rəisinin otağına girərək döyüşə yollanmaq üçün icazə istəmişdi: "Nəhayət, sonuncu görüşündə müharibəyə getməyə nail oldu. Hər dəfə bizimlə danışanda "Məndən nigaran olmayın, bu torpaqlar cənnətdir" deyirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Anası Simnarə İsmayılova bildirir ki, Vaqifin döyüş yoldaşlarını dəfələrlə ölümdən xilas etdiyini sonradan biliblər: "Çox şükür ki, oğlumun iki övladı var. Mən indi təskinliyi onlardan alıram".

Həyat yoldaşı Samirə İsmayılzadə Vaqiflə sonuncu dəfə oktyabrın 20-də – atasının ad günündə əlaqə saxladıqlarını deyir: "Zəng edərək atasını təbrik etdi. "Narahat olmayın, hər şey yaxşıdır" dedi. Təsadüfdən kiçik oğlum Renat həmin gün ilk dəfə "ata" kəlməsini söylədi".

Samirə xanım söyləyir ki, oktyabrın 21-də Vaqif ona sonuncu mesajı yollayıb: "Səhər oyandım ki, Vaqifdən mesaj gəlib. Yazmışdı ki, səni Allaha, uşaqları isə sənə əmanət edirəm. Özünü və övladlarımızı qoru. Daha sonra zəng elədim, cavab vermədi...".

2017-ci ildə ailə həyatı quran Vaqifin Vüqar və Renat adında iki oğlu yadigar qalıb. Yaxın gələcəkdə Vüqar və Renat atası kimi qəhrəman igidlərimizin qanı bahasına düşməndən azad olunan doğma torpaqda yaşayacaqlar.

Vaqif İsmayılzadə oktyabrın 26-da Beyləqan rayonunun Bahar qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Xalq artisti Vaqif Şərifov vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Gəncə Dövlət Dram Teatrının rejissoru, Xalq artisti Vaqif Şərifov 5 oktyabr 2021-ci il tarixində, 78 yaşında vəfat edib.



Vaqif Abdulla oğlu Şərifov 12 avqust 1943-cü ildə Gəncədə anadan olub. 1960-cı ildən Gəncə Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayıb. 1967-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) Rejissorluq fakültəsini bitirib. 1967-1974-cü illərdə Gəncə Dövlət Dram Teatrında rejissor, 1974-1977-ci illərdə Sumqayıt Dövlət Dram Teatrında baş rejissor, 1977-1981-ci illərdə Ağdam Dövlət Dram Teatrında baş rejissor, 1981-1984-cü illərdə Gəncə Dövlət Dram Teatrında quruluşçu rejissor, 1984-1998-ci illərdə isə Gəncə teatrında direktor və bədii rəhbər vəzifələrində çalışıb. Müxtəlif illərdə Nazim Hikmətin "Domokl qılıncı", Hüseyn Cavidin "Maral", Cəfər Cabbarlının "Almaz", "Yaşar", A.Baranqanın "İctimai rəy", Y.Saloviçin "Qəribə dilənçi", Altay Məmmədovun "Dəli Domrul", Anarın "Şəhərin yay günləri", Mirzə Fətəli Axundzadənin "Qanun dəllalı", Elçinin "Qatil", Süleyman Sani Axundovun "Eşq və intiqam", İsmayıl Şıxlının "Dəli Kür", Orxan Kamalın "Yad qızı", Nüşabə Məmmədlinin "Unutmaq istəyirəm", Fəridə Əlyarbəylinin "Xan qızı" və s. əsərlərə quruluş verib.

Ümumilikdə Azərbaycan teatrlarında 180-dən artıq pyesə səhnə həyatı verən Vaqif Şərifov "Qanun dəllalı" tamaşasının quruluşuna görə "Qızıl dərviş" mükafatına layiq görülüb.

1992-ci ildə "Əməkdar incəsənət xadimi", 2014-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülən sənətkar 2013-cü ildə "Tərəqqi" medalı ilə təltif edilib. 2020-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

***

Gəncə Dövlət Dram Teatrında Xalq artisti ilə vida mərasimi təşkil olunub. Mərasimdə şəhər İcra Hakimiyyətinin əməkdaşları, mədəniyyət işçiləri, şəhər ictimaiyyətinin nümayəndələri və rejissorun sənət yoldaşları iştirak ediblər.

Vaqif Şərifov Gəncə şəhərindəki Fəxri xiyabanda torpağa tapşırılıb.

Allah rəhmət eləsin.

# Milli ruh və dəyərlərə bağlı sənətkar

Musiqi mədəniyyətimizin inkişafında əhəmiyyətli rol oynamış sənətkarlardan biri Xalq artisti Xəyyam Mirzəzadə olub. Görkəmli bəstəkar milli və dünya musiqi irsinin nailiyyətlərindən bəhrələnərək müxtəlif janrlarda qiymətli əsərlər ərsəyə gətirib. Onun yaradıcılığı Azərbaycanın musiqi sənəti tarixinin parlaq səhifələrindəndir.




5 oktyabr 1935-ci ildə İçərişəhərin darısqal dalanlarındakı evlərin birində, görkəmli dilçi alim Hadi Mirzəzadənin ailəsində bir oğlan uşağı dünyaya göz açır. Bunu eşidən babası, o vaxt İranda yaşayan İsmayıl kişi oğlu Hadiyə xəbər göndərir: nəvəmin adını Xəyyam qoyun. Şərqin böyük şairi Ömər Xəyyamın şərəfinə qoyulan adı doğrultmaq üçün ata oğlunun təlim-tərbiyəsi ilə ciddi məşğul olur. Onu erkən çağlardan şəhərin mədəni həyatı ilə tanış edir, özü ilə dövrünün tanınmış şair və yazıçıları ilə görüşlərə, tədbirlərə aparır. Atası onu ədəbiyyatçı kimi yetişdirmək istəyirdi. Amma Xəyyam ağlı kəsəndə başqa bir səmtə – musiqiyə üz tutur. 7 yaşına çatanda Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki onillik musiqi məktəbinə gedir. Təhsilini 1952-ci ildə müvəffəqiyyətlə başa vurur. Bəstəkarlıq üzrə ali təhsil almaq üçün sənədlərini konservatoriyaya verir. 1957-ci ildə böyük bəstəkar Qara Qarayevin sinfini bitirir. Əmək fəaliyyətinə də elə burada – konservatoriyada müəllim kimi başlayır. Konservatoriyada Kompozisiya kafedrasının müdiri (1969) olur, 1979-cu ildən professor kimi fəaliyyət göstərir.

O, ilk musiqi variasiyalarını hələ məktəbli ikən, kiçik skripkasını sinəsinə sıxanda yazmışdı. Not dəftərindəki bu qeydlər sonralar rəngarəng musiqi əsərlərinə çevrilir, 50-ci illərdən etibarən konsert salonlarında səslənir. "Oçerklər-63" simfonik poeması, "Ağlar və qaralar" baleti, "Triptix", "Mirzənin söylədikləri", "Etiraf" vokal məcmuəsi, "Mərakeş" rapsodiyası, "Muğan çöllərində" süitası, xor, solist və simfonik orkestr üçün "Çiçəklən, Vətənim" ( E.Sabitoğlu ilə birgə), ağacdan nəfəs alətləri üçün "Sekstet", misdən nəfəs alətləri üçün "Kvartet", dörd miniatür, skripka və fortepiano üçün sonatina və digər musiqi əsərləri bəstəkara şöhrət gətirir.

Xəyyam Mirzəzadənin çox sayda dram tamaşalarına yazdığı musiqilər ifadə vasitələrinin rəngarəng və məna-məzmun dolğunluğu ilə könüllər oxşayıb. Görkəmli sənətkarın yaradıcılığının müəyyən hissəsi kino ilə bağlı olub. O, 30-dan artıq filmə musiqi yazıb. İlk olaraq 1959-cu ildə Xalq yazıçısı İmran Qasımovun ssenarisi üzrə çəkilən "Bizim küçə" filminə musiqi bəstələyib. Sonralar "Yeddi oğul istərəm", "Bakıda küləklər əsir", "Arxadan vurulan zərbə", "Bağ mövsümü", "Güllələnmə təxirə salınır!" və s. filmlərə musiqilər yazıb. Bu ekran əsərlərinin bədii dəyərini artıran xüsusiyyətlərdən biri də zəngin koloritli musiqi müşayiətidir.

Araşdırmalarda qeyd edilir ki, görkəmli sənətkar gənclərlə ünsiyyətdə çox maraqlı olub. Tələbələri ondan soruşanda ki, sənətkarın formalaşması üçün başlıca nə lazımdır, deyərmiş: "Sənətkarlıq üçün mütləq mühit və fədakarlıq lazımdır. Təhsil aldığın məktəb, tanış olduğun adamlar sənin şəxsiyyət kimi formalaşmağında əsas amillərdəndir. Bəxtim onda gətirib ki, ziyalı ailə mühitində böyümüşəm. Uşaqlıq illərim müharibə dövrünə düşsə də, konservatoriya nəzdindəki musiqi təmayüllü orta məktəbdə skripka dərsi almışam. Üzeyir bəyin Moskva, Sankt-Peterburq kimi əla sənət ünvanlarından yaxşı müəllimlər dəvət etdiyi və həmin sənət mebədləri təhsilindən qayıtmış Q.Qarayev, C.Hacıyev kimi nəhənglərin dərs dediklər Azərbaycan Dövlət Konservatoriyasında oxumuşam...".

Yaradıcı əməyi yüksək qiymətləndirilən Xəyyam Mirzəzadə müxtəlif dövlət təltiflərinə – respublika Lenin Komsomolu mükafatına, Dövlət mükafatına, "Əməkdar incəsənət xadimi", "Xalq artisti" fəxri adlarına, "Şöhrət" (2000), "Şərəf" (2010) ordenlərinə layiq görülüb, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. Görkəmli bəstəkar 30 iyul 2018-ci ildə, 82 yaşında dünyasını dəyişib.

**Savalan FƏRƏCOV**

# Qəlblərdə qalıb sözləri...

## Nəğməkar şair İsmayıl Dadaşov musiqinin ruhunu dəqiq duyurdu



Bəzən olur belə anlar. Oturduğumuz yerdə, hətta bəzən vacib bir işlə məşğul olduğumuz zaman şüurumuzun alt qatında kimisə xatırlayır, hansısa musiqini yada salır, hətta astadan zümzümə də edirik. Son aylarda nədənsə, xatırladığım bütün mahnıların sözlərinin müəllifi İsmayıl Dadaşovdur.

Onunla tez-tez "Azərbaycanfilm" Kinostudiyasının koridorlarında rastlaşardıq. Sakit, səmimi səslə salamlaşıb keçərdi. Hətta bir dəfə rastlaşdığımız zaman bu qədər möhtəşəm sözlərin müəllifi olan insan nədən belə hədsiz sakit və təvazökardır dedim özünə. Gülümsəyib "siz məni nəğməkar-şair kimi tanıyırsınızsa, bu, mənə bəs edər" dedi. İsmayıl Dadaşovla son görüşümüz və son dialoqumuz da elə bu oldu.

Ötən ilin oktyabrında ölüm xəbərini eşidəndə çox təəssüf etdim. Çünki hər dəfə bir müsahibə düşünsəm, nədənsə təxirə düşürdü. Müsahibə verməyi sevmədiyini də yaxşı bilirdim.

"Şeirlərimin ana xətti ümiddir" deyən şairin bu nikbin, ümid dolu sözlərinə Azərbaycanın görkəmli bəstəkarları musiqilər yazıb, məşhur ifaçıları bu əsərləri ifa ediblər. Bu siyahıda Əlibaba Məmmədov, Oqtay Rəcəbov, Rauf Hacıyev, Emin Sabitoğlu, Mobil Babayev, Tofiq Babayev, Eldar Mansurov, Vaqif Gərayzadə, Vüqar Camalzadə, Cəmil Əmirov, Faiq Sücəddinov, Cavanşir Quliyev, Elçin İmanov, Nailə Mirməmmədli və başqa bəstəkarları qeyd etmək olar.

İsmayıl Dadaşov 1957-ci ildə Bakıda müəllim ailəsində doğulub. Hələ məktəb illərində ədəbiyyata həvəs göstərib. Azsaylı müsahibələrində bu barədə danışan şair deyib: "31 nömrəli orta məktəbdə oxumuşam və sərbəst mövzularda inşa yazılara öz şeirlərimi əlavə etməyi çox sevirdim. Demirəm ki, həmin şeirləri yaxşı hesab etmək olardı, amma yazdıqca ətrafımdakı insanlar bu şeirləri bəyənirdilər. Sonra İncəsənət İnstitutuna qəbul olundum və 1978-ci ilin sentyabrında sözlərimə ilk dəfə musiqi bəstələndi. Bir dəfə mənim şeir dəftərim müğənni Zümrüd Məmmədovanın əlinə düşdü və o həmin dəftərdən məndən gizlin bir şeiri köçürüb aparmışdı. Həmin şeir "Bugünkü dostlarım" adlanırdı. Əlibaba Məmmədov həmin şeirə musiqi bəstələdi və Zümrüd xanım bu nəğməni ifa etdi. Elə həmin ilin dekabrında Əlibaba Məmmədov mənə zəng vurdu və "Mənim Azərbaycanım" mahnısı Yeni il şənliyində səsləndi".

Uzun illər musiqi redaktoru vəzifələrində çalışan şair hər danışıqda, sözdə, şeirdə musiqi gəzirdi. Müasir dövrümüzdə İsmayıl Dadaşov qədər musiqiyə mətn yazan şair az olar. Hər kəsə bəllidir ki, bu, çox çətin prosesdir. Bir var şair ilhamlanıb yazır, bir də var şən hazır musiqinin ritmini tutub, onu hiss etməlisən, bəstəkarın bu musiqini yazanda nə düşündüyünü duymalısan. Onun qələmindən çıxan neçə-neçə mahnı mətnləri insanların qəlbinə yol tapıb. "Nəğməkar şair musiqi ilə ədəbiyyat arasında olan insandır" deyən İsmayıl Dadaşovun sözlərinə yazılan mahnıları Azərbaycan ifaçılıq məktəbinin unudulmaz səsləri SSRİ Xalq artisti Rəşid Behbudov, Xalq artistləri İslam Rzayev, Elmira Rəhimova, Nisə Qasımova, daha sonrakı nəsil Xalq artistləri Brilliant Dadaşova, Faiq Ağayev, Zülfiyyə Xanbabayeva, Aygün Kazımova və başqaları ifa edib.

Vətən müharibəsi başlanan gündən vətənpərvərlik ruhunda yazılan, radio və televiziya dalğalarında səslənən, sevilən bir neçə mahnının mətn müəllifi də İsmayıl Dadaşov idi. "Qələbənin yolları", "Vətənim" kimi mahnılar bu silsilədəndir.

Şair yaradıcılığının müəyyən dövrünü Xalq artisti, bəstəkar Eldar Mansurovla birgə işləyib. Bəstəkar onu belə xatırlayır: "İsmayılla 80-ci ilin əvvəllərindən birgə çalışmağa başladıq. Çox gözəl şair idi. Onunla işləmək isə hədsiz rahat idi. Hansı sözü istəyirdimsə, onu yazıb mənə verirdi. Həm də onunla operativ işləyirdik. Bəzən səhər sifariş alırdıq ki, mahnı axşama hazır olmalıdır. İki saata həmin mahnını hazır edirdik. Hansı ki, bu gün də həmin mahnılar böyük sevgi ilə ifa edilir. Çox heyfsilənirəm ki, o artıq aramızda yoxdur. Ölümündən əvvəl pandemiya səbəbindən görüşə bilmədik. Buna baxmayaraq, mütəmadi zəngləşirdik. İsmayılın bütün şeirləri və mahnı mətnləri gözəl idi. Sanki musiqinin ruhunu duyurdu və onun yazdığı sözlər hər zaman mənim ürəyimcə olub".




Xalq artisti Faiq Ağayevin repertuarında yer alan sevilən mahnıların bir çoxunun da mətni İsmayıl Dadaşova məxsusdur. Müğənni deyir ki, şair sırf incəsənət adamı idi. Hər zaman sənətə görə narahatlıq, həyəcan keçirərdi: "Hər mahnımızın müzakirəsi çox qızğın keçirdi. Mən mətnə hədsiz həssas insanam. Buna görə təklif olunan mətnləri birgə işləyirdik. Dostluğu itirməyən, hər görüşümüzdə səmimi, isti görüşən, söhbətləşən insan idi. Səhnə fəaliyyətimin əvvəlindən 1990-cı illərin sonuna qədər onunla birgə işləmişik. Sonralar işbirliyimiz olmasa da, isti münasibətlərimiz ömrünün sonuna kimi davam etdi".

İsmayıl Dadaşov həm də bacarıqlı musiqi redaktoru idi. 1984-cü ildə "Azərbaycanfilm" Kinostudiyasında əmək fəaliyyətinə başladığı ilk gündən işinə olan məhəbbəti, qərəzsiz, vicdanlı, yaradıcı münasibəti ilə, həmçinin hamı ilə ünsiyyət yarada bilən insan kimi kollektivin böyük hörmət və məhəbbətini qazanmışdı.

O, yüzlərlə bədii, sənədli, cizgi filminin musiqi tərtibatçısı, "Bəxt üzüyü", "Ağ atlı oğlan", "Yuxu", "Dərs", "Biz qayıdacağıq" kimi tamaşaçılar tərəfindən sevilən bir sıra bədii filmlərin musiqi redaktorudur. Onilliklər boyu çəkilən Azərbaycan filmlərinin musiqisinin arxivdə qorunub saxlanmasında, fonotekadakı bütün lent yazılarının yeni texnoloji avadanlıqlara köçürülməsində onun xidmətləri əvəzsizdir.

Əhməd Orucoğlunun "Pul dəlisi", "Qonşular", "Qayınana əməliyyatı", Marat Haqverdiyevin "Qısqanc ürəklər" və s. tamaşalar üçün musiqilərə mətnlər yazıb. "Qızıl fond"da qorunan 20-yə yaxın televiziya tamaşasının musiqi tərtibatçısı da İsmayıl Dadaşovdur. O, "Mozalan" satirik kinojurnalının bir sıra buraxılışlarının və neçə-neçə sənədli filmin də musiqi redaktoru olub.

Nəğməkar şairi Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov belə xatırlayır: "Mənim İsmayıl Dadaşovla tanışlığım 2000-ci illərin əvvəllərində "Space" telekanalında olmuşdu. O dövrdən dostluğumuz başladı. Daha sonra "Azərbaycanfilm" Kinostudiyasında fəaliyyətə başladım, biz səkkiz il birlikdə çalışdıq. İsmayıl müəllim milli-mənəvi dəyərlərimizi yüksək səviyyədə bilən və əsl Azərbaycan kişisinə malik xüsusiyyətləri olan insan idi. O dövrdə kinostudiyada filmlərin musiqiləri babin kinolentlərdə idi. Mən İsmayıl müəllimdən bu musiqilərin rəqəmsal varianta köçürülməsinin vacibliyini bildirdim. Bu, çox çətin bir iş idi. İsmayıl Dadaşov kinostudiyanın baş mexaniki Mehman müəllimlə birlikdə bu musiqiləri rəqəmsal yaddaşa köçürdü. Bu materiallar hazırda Dövlət Film Fondu və "Azərbaycanfilm"də saxlanılır. Bundan əlavə, biz onunla bir sıra layihələr həyata keçirdik. Hər zaman "Buna da şükür, hər şey yaxşı olacaq" deyərdi. Çox təvazökar idi. Kinostudiyada 60 illik yubileyini keçirmək istəyirdik. Dəfələrlə etirazını bildirdi. Ancaq gözəl bir yubiley tədbiri təşkil etdik. Onun vəfat xəbərini eşidəndə çox sarsıldım. Allah rəhmət eləsin".

"Hələ də uşaq kimi qaçıram. Arzular tükənməzdir, çoxdur. İnsanı yaşadan arzulardır. İnsan böyüdükcə arzuları da böyüyür, sevgi də böyüyür, ailə də böyüyür. Artıq özün üçün yox, balaların üçün, sonra nəvələrin üçün qaçırsan. Elə tələsə-tələsə qaçırıq arzuların ardınca, amma düşünmürük ki, hara qaçırıq, ömür bir, yol bir..." deyən İsmayıl Dadaşov 22 oktyabr 2020-ci ildə aramızdan ayrılsa da, sözü və sənəti ilə daim qəlblərdə yaşayacaq. Ruhu şad olsun.

**Lalə AZƏRİ**

# Vətən müharibəsinin “Görünməyən qəhrəmanlar”ı – sənədli filmlər silsiləsi

Mədəniyyət Nazirliyi son bir il ərzində Vətən müharibəsinə həsr olunmuş 20-dən artıq müxtəlif metrajlı filmin istehsalına maliyyə dəstəyi göstərib. Bu filmlərin istehsalı həm dövlət studiyaları, həm də özəl prodüser mərkəzləri tərəfindən aparılıb.



Mədəniyyət Nazirliyinin sifarişi ilə “Azərbaycanfilm” Kinostudiyasında “Görünməyən qəhrəmanlar” adlı sənədli filmlər silsiləsinin istehsalı davam edir. Filmlər hər biri 44 dəqiqə olmaqla müxtəlif qoşun növlərinin qəhrəman zabit və əsgər heyətinin 44 günlük müharibə müddətində keçdiyi şərəfli və müzəffər döyüş yolundan bəhs edir.

Seriyanın ilk filmi – “Görünməyən qəhrəmanlar: 27 sentyabr” Vətən müharibəsinin başladığı günün ildönümündə – sentyabrın 27-də İctimai Televiziyada (İTV) nümayiş olunub. Filmin rejissoru və ssenari müəllifi Seyran Mahmudoğlu, prodüseri Fariz Əhmədovdur.

5 filmdən ibarət olan silsilənin digər seriyaları müxtəlif qoşun növlərinin Vətən müharibəsi dövründəki fəaliyyətini əks etdirir. Filmlərdə şahidlər və müharibə qəhrəmanları real döyüş anlarını nəql edəcəklər, ekskluziv kadrlar göstəriləcək. Noyabr ayının əvvəlindən Zəfər Gününədək (8 Noyabr) bütün filmlər İTV-nin efirində yayımlanacaq.

Layihə Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Azərbaycanfilm” və İTV-nin birgə istehsalı ilə həyata keçirilir. Sənədli serialın prodüseri Fariz Əhmədovdur.

“Görünməyən qəhrəmanlar: 27 sentyabr” (rejissor: Seyran Mahmudoğlu, ssenari müəllifi: Seyran Mahmudoğlu).

“Görünməyən qəhrəmanlar: Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları” (rejissor: Seyran Mahmudoğlu, ssenari müəllifi: İdris Heydərli).

“Görünməyən qəhrəmanlar: Hərbi Hava Qüvvələri” (rejissor: Bəhruz Qədirov, ssenari müəllifi: Billurə Aslanova).

“Görünməyən qəhrəmanlar: Artilleriya” (rejissor: Ayşad Səfərəliyev, ssenari müəllifi: İdris Heydərli)

“Görünməyən qəhrəmanlar: Dövlət Sərhəd Xidməti” (rejissor: Seyran Mahmudoğlu, ssenari müəllifi: Esmira Bədəlova-Məmmədova).

Mədəniyyət Nazirliyi dəyərlərimizin kino vasitəsilə təbliği məqsədilə bu sahəyə dəstəyini davam etdirir.

# Duzdağdan Duz Muzeyinə



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan ölkəmizin tarixində və müasir inkişafında mühüm yer tutan əsas mərkəzlərdən biridir. Bir sıra dünya hadisələri və regional proseslər Naxçıvanın ilkin sivilizasiyaların əsas mərkəzlərindən biri olduğunu sübut edir.

İlk dəfə yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində Naxçıvanı Nuh peyğəmbərin yaşadığı yer kimi xatırlamışdır. Sonrakı dövrlərdə də Naxçıvana səyahət edən müxtəlif səyyahlar buranın Nuhla bağlı olduğunu öz əsərlərində qeyd etmişlər. Rus tədqiqatçısı Konstantin Nikitin 1882-ci ildə Tiflisdə nəşr olunmuş “Naxçıvan mahalı və Naxçıvan şəhəri” adlı irihəcmli məqaləsində Nuh peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması və hətta şəhər əhalisinə duz çıxarmağı öyrətməsi barədə məlumat verərək yazırdı: “Tufandan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir”.

Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən amillərdən biri də son illərdə elmi tədqiqata cəlb olunan Duzdağ mədəniyyətidir. Bu mədəniyyətin öyrənilməsi sahəsində son illərdə bir sıra mühüm addımlar atılmışdır. Həmin addımlardan biri də Naxçıvan Duz Muzeyinin yaradılmasıdır.

Muzey NMR Ali Məclisi sədrinin 12 sentyabr 2017-ci il tarixli sərəncamına əsasən təşkil olunmuşdur. Muzeyin yaradılmasında əsas məqsəd Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu dünyaya çatdırmaq, aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsi, elmi araşdırmalar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılması və təbliğini təmin etməkdən ibarətdir.

“Duzdağ” hotelinin birinci mərtəbəsində yerləşən muzeyin ekspozisiya zalında rəsmi sənədlər, Nuh peyğəmbər və Naxçıvan bölgəsi, Duzdağ mədəniyyəti və duz yataqları haqqında dərc olunmuş mətbuat materialları və müxtəlif eksponatlar yer almışdır. Burada eramızdan əvvəl IV-III minilliklərə aid daş əmək alətləri nümayiş olunur. Bu alətlər Duzdağ mədənində duz süxurlarının parçalanaraq kiçik hissələrə ayrılması və döyülərək narın hala salınması üçün istifadə edilib. Muzeydə nümayiş olunan eradan əvvəl IV-II minilliklərə aid daş çəkiclər isə muxtar respublikamızda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığı təəssüratını yaradır.

Qeyd edək ki, beş minillik tarixə malik Naxçıvanda şəhər mədəniyyətinin əsasını duzçıxarma və duz mədəniyyəti təşkil etmişdir. Muzeydə nümayiş olunan arxeoloji qazıntılar zamanı duz mağaralarında aşkarlanmış müxtəlif dövrlərə aid daş alətlər, Eneolit və Erkən Tunc dövrünə aid keramika nümunələri bunun ən bariz nümunələridir. Həmçinin ekspozisiyada narın duzun saxlanılması və daşınmasında istifadə olunan duz torbaları da nümayiş olunur. Üzərində müxtəlif həndəsi və nəbati naxışlar olan keçən əsrin əvvəllərinə aid bu torbalar Naxçıvanda toxuculuğun inkişafından xəbər verir. Saxsı duzqabıların tarixi eramızdan əvvəl II-I minilliklərə aid edilir. Daş, gil, eləcə də misdən hazırlanmış duzqabılar, duz saxlamaq üçün istifadə olunan gil küpələr maraqlı eksponatlardandır.



Muzeyin mərkəzi hissəsində Nuh peyğəmbərin heykəli mövcuddur. Duzdan hazırlanmış və üzərində “Məhəmməd” və “Əli” sözləri yazılmış Qurani-Kərim də muzeyin unikal eksponatlarındandır. Muzeydə Naxçıvan duzunun tərkibi haqqında məlumat və bu diyarın duzla bağlı inam və adətləri barədə şifahi xalq ədəbiyyatı nümunələri də yer almışdır: “Duzun üzünə gülümsərlər”, “Ömrün duz dağına dönsün”, “Duz dağı kimi durasan”, “Duz çörək, düz çörək”, “Duza, çörəyə gələni incitməzlər” və s.

Muzeydə həmçinin keramika ustası, rəssam Ədalət İsmayılov tərəfindən sal duz üzərində “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” loqotipi və duzdan hazırlanan əl işləri də nümayiş olunur.

Naxçıvan Duz Muzeyini hər il ölkəmizlə yanaşı, Türkiyə, Rusiya, İran, Qazaxıstan, Ukrayna və digər ölkələrdən minlərlə insan ziyarət edir. Hazırda muzeyin www.duzmuzeyi.nakhchivan.az internet saytı da fəaliyyət göstərir. Saytın müxtəlif bölmələrində muzey haqqında məlumat, fotoşəkillər və videoçarxlar yer almışdır.



Duz Muzeyində nümayiş olunan dəyərli eksponatlar Naxçıvan Duzdağının qədim tarixi və mədəni potensialını özündə cəmləşdirərək gələcək nəsillərə çatdırılmasında və təbliğində əhəmiyyətli rol oynayır.

**Nilufər AĞAYEVA**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun kiçik elmi işçisi**

# Dünya əhəmiyyətli Gilgilçay səddi

## Çin səddindən sonra dünyada ən böyük müdafiə istehkamı

Qədim tariximizin bütün dövrlərində şahlar, hökmdarlar vaxtilə “Quzğun dəniz” adlanan Xəzərlə dağlar arasındakı dar keçidləri bağlamaq və ölkəni şimaldan gözlənilən hücumlardan qorumaq məqsədilə bu yerlərdə möhkəmləndirilmiş qalalar, istehkamlar tikdiriblər.

Qədim Azərbaycan dövləti Qafqaz Albaniyası zamanında Dərbənddən Giləziyə qədər bir neçə müdafiə səddi inşa olunub. Qədim müəlliflər bu sədləri “Kaspi qapıları” adı ilə yanaşı, “Dəniz” və “Dərbənd” qapıları da adlandırıblar.

Erkən feodalizm dövründə Qafqaz Albaniyasında köçərilərin hücumlarının qarşısını almaq üçün müdafiə sədləri tikilirdi. Həmin sədlərdən ən möhtəşəmi indiki Siyəzən və Şabran şəhərlərinin ərazilərindəki, “Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğuna daxil olan “Gilgilçay” müdafiə istehkamıdır. Gilgilçay səddi Dərbənd keçidində tikilmiş “Uzun divarlar” adlanan müdafiə istehkamlarından ən əhəmiyyətlisidir.

Ümumi uzunluğu 120 km, divarlarının qalınlığı bəzi yerlərdə 8 metrə çatan “Uzun divarlar” tarixdə Çin səddindən sonra ən böyük müdafiə istehkamı hesab olunur.

Gilgilçay səddi dənizdən başlayaraq Çıraqqalaya qədər uzanır. Sədd çiy kərpic və yonulmamış daşlardan hörülüb.

Böyük ədib və tarixçi alim Abbasqulu ağa Bakıxanov məşhur “Gülüstani-İrəm” kitabında qeyd edir ki, bu sədd dənizdən başlayıb Əlixanlı (Alğonlu) kəndinin üst tərəfindən keçərək Çıraqqalaya bitişir. Oradan da üzərində böyük bir şəhərin xarabası olan Ata dağından keçərək Qonaqkəndin üstündən Babadağa doğru gedir. Fransız rahibi Vilhelm Rubruk (XII əsr) bu qədim tikili haqqında yazır ki, biz oradan (Şabrandan) keçərkən dağlardan dənizəcən enən səddi gördük.



Ərəb müəlliflərindən İbn Xordadbeh xatırladır ki, Şirvan ölkəsində hələ I Kavaddan (448-531-ci illər) əvvəl də Kaspi sahili müdafiə sədləri olub. Bərmək səddindən 23 kilometr şimala “Abzud Kavad” adlanan divarlar Gilgilçay səddi boyunca uzanıb gedir. Bunların yanında Şaporan (Şabran) şəhəri yerləşirdi.

Tədqiqatçı alim Əsgər Əliyev öz araşdırmalarında tarixçi K.V.Treverə əsaslanaraq qeyd edir ki, Gilgilçay müdafiə səddi Sasani şahı II Yezdəgirdin vaxtında tikilib. Bəlkə də Şahənşah Firuzun vaxtında inşası başa çatdırılıb. Səddin Babadağa qədər hissəsində divarlarının hündürlüyü 5-7 metr, bəzi yerlərdə 7-11 metrə, eni isə 30-35 metrə qədərdir. Bu sədd şimaldan cənuba keçilməsi mümkün olan bütün keçidləri bağlayırdı...

Bu böyük səddin mərkəzində iki böyük şəhər-qala yeri diqqəti cəlb edir. Gilgilçay səddi dörd hissədən ibarət olub. Hər 30-35 metr məsafədə bürc və ya qüllə ucaldılıb. Səddə ən böyük bürcün hündürlüyü 4.7 metr, eni isə 7.2 metrdir. Bürc və divarlar əsasən yonulmamış daşlardan tikilib.

Gilgilçay səddi haqqında məlumatlar və arxeoloji tədqiqatlar göstərir ki, kaspi və alban tayfaları çox böyük miqyaslı belə tikilini on illər, bəlkə də yüz illər boyunca tikib başa çatdırıblar.

Dünya əhəmiyyətli Gilgilçay səddi “Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğunun işçiləri tərəfindən mühafizə olunur, bütün sədd boyunca mütəmadi imeciliklər keçirilir, monitorinqlər aparılır.

**Murad ZƏKİYEV**
**“Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğunun ekskursiyaçısı**

## Xatirə təqvimi — 6–8 oktyabr

### Azərbaycan

**6 oktyabr 1930** – Dövlət xadimi, publisist Səməd ağa Ağamalıoğlu (1867–1930) vəfat edib. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, sovetləşmədən sonra Azərbaycan SSR MİK (respublika hökuməti) sədri, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri olub. Azərbaycanda və Orta Asiya respublikalarında latın əlifbasına keçilməsinə rəhbərlik edib.

**6 oktyabr 1975** – Bakıda Səməd Vurğunun Ev-Muzeyinin açılışı keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**7 oktyabr 1921** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Gita Aleksandrovna Bessantina (1921–2000) anadan olub.

**8 oktyabr 1951** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (1951 – 26.4.2021) Masallı rayonunun Bədəlan kəndində anadan olub.

**8 oktyabr 1975** – Əməkdar artist Rəşid Səməndər oğlu Rzayev (1975 – 20.11.2020) anadan olub. Akademik Milli Dram Teatrında, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**8 oktyabr 2009** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (28.8.1935 – 2009) vəfat edib. “İtkin gəlin”, “Əfsanəsiz illər”, “Təyyarə kölgəsi” və s. romanların müəllifidir.

**8 oktyabr 2010** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (30.1.1948 – 2010) vəfat edib. Akademik Musiqili Teatrda, Dövlət Mahnı Teatrında çalışıb.

### Dünya

**6 oktyabr 1914** – Norveç səyyahı, etnoqraf və antropoloq Tur Heyerdal (Thor Heyerdahl; 1914 - 18.4.2002) anadan olub. Heyerdal dəfələrlə Azərbaycanda olub, Qobustana ekspedisiyalar təşkil edib.

**6 oktyabr 1923** – Türkiyə yazıçısı, şair Yaşar Kamal (Kamal Sadık Gökçeli; 1923 – 28.2.2015) anadan olub. “Tənəkə”, “Yağmurcuq quşu”, “Qanın səsi” romanlarının müəllifidir. Kitabları bir çox dillərə tərcümə olunub.

**7 oktyabr 1915** – Rus şairəsi Marqarita Aliger (1915-1992) anadan olub. Poemaları: “İgidlərin xatirəsinə”, “Zoya” və s.

**8 oktyabr 1848** – Flamand əsilli fransız musiqiçisi, “İnternasional” himninin bəstəkarı Pyer Degeyter (Pierre Degeyter; 1848-1932) anadan olub.

**8 oktyabr 1892** – Rus şairi, yazıçı Marina Svetayeva (1892 – 31.8.1941) anadan olub. Əsərləri: “Qırmızı at üstündə” (poema), “Mənim Puşkinim”, “Əsir ruh” (nəsr) və s.

**Hazırladı: Vüqar ORXAN**

# Bakıda Yeseninin anadan olmasının 126-cı ildönümü qeyd edilib

Oktyabrın 3-də AMEA Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin təşkilatçılığı ilə görkəmli rus şairi Sergey Yeseninin anadan olmasının 126-cı ildönümünə həsr edilən tədbir keçirilib.



AMEA-nın Dendrologiya İnstitutunda təşkil edilən mərasimi Sergey Yesenin adına Azərbaycan-Rusiya Ədəbi Əlaqələri Mərkəzinin əməkdaşı Nəzakət İbadova açaraq görkəmli rus şairinin yaradıcılığından söz açıb. Qeyd edilib ki, Yesenin 1920, 1924-1925-ci illərdə Bakıda ümumilikdə 70 gün qalıb, Mərdəkan qəsəbəsində yaşayıb və Bakıya olan sevgisi yaradıcılığında əksini tapıb. Şairin burada yazdığı “Əlvida, Bakı!”, “Balaxanı mayı” və digər əsərləri onun poeziyasının qiymətli inciləridir.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə nəticəsində 1975-ci ildə Mərdəkanda Sergey Yeseninin Ev-Muzeyi açılıb. Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovun təşəbbüsü ilə 2008-ci ildə ev-muzeyi Sergey Yeseninin adını daşıyan Azərbaycan-Rusiya Ədəbi Əlaqələri Mərkəzinə çevrilib. Mərkəz tərəfindən məktəb və universitetlərdə şairin poetik irsi ilə bağlı layihələr həyata keçirilir.

Mərasimdə çıxış edən Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov hər il oktyabrın 3-də Yeseninin doğum gününün Azərbaycanda qeyd edilməsini yüksək dəyərləndirib, tədbirin təşkilatçılarına minnətdarlığını bildirib. Səfir Sergey Yeseninin Rusiya və Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsi istiqamətində xidmətlərini xüsusi qeyd edib, şairin yaradıcılığının Bakı dövrü haqqında danışıb.

Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin, Milli Məclisin deputatı Rauf Əliyev, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin müdiri Nailə Əliyeva, Rusiya Yazıçılar İttifaqının üzvü, şair Eldar Əhədov, politoloq-publisist Reyhan Mirzəzadə və digər çıxış edənlər şairin zəngin yaradıcılığından, Bakı həyatı ilə bağlı tarixi faktlardan söz açıblar.

Tədbirin ədəbi-bədii hissəsində şairin əsərlərindən nümunələr təqdim edilib, sözlərinə bəstələnən mahnılar ifa olunub. Akademik Rafael Hüseynovun Azərbaycan ədəbiyyatı klassiklərindən bəhs edən kitabları qonaqlara təqdim edilib.

Sonda səfir Mixail Boçarnikov Azərbaycan-Rusiya Ədəbi Əlaqələri Mərkəzinin ekspozisiyası ilə tanış olub.

# “Beynəlxalq Musiqi Günü” adlı virtual sərgi

UNESCO-nun qərarına əsasən, 1975-ci ildən 1 oktyabr Beynəlxalq Musiqi Günü kimi qeyd olunur. Əlamətdar gün dünya mədəniyyəti və incəsənəti tarixində musiqinin məxsusi yerini və rolunu bir daha diqqətə çatdırır.

Beynəlxalq Musiqi Günü münasibətilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən eyniadlı virtual sərgi hazırlanıb. Virtual sərgidə mövzu ilə əlaqədar kitablar, dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar nümayiş olunur.

# “Art management” layihəsində növbəti vebinar

Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə reallaşan “Art management” layihəsi çərçivəsində silsilə vebinarlar davam edir. Layihənin növbəti vebinarı “Müəllif hüquqları qanunvericiliyi” mövzusuna həsr olunub.

Onlayn seminarı Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Müəllif-hüquq obyektlərinin qeydiyyatı və hüquq ekspertizası şöbəsinin müdiri Nadirə Bədəlbəyli aparıb.

Qeyd edək ki, “Art management” layihəsi yaradıcı şəxslərin bu sahə üzrə hazırlıq səviyyəsini yüksəltmək, mövcud çatışmazlıqları vaxtında aşkar edərək tədbirlər görmək, yeni bilgi və təcrübə mübadiləsi platformasını yaratmaq məqsədilə həyata keçirilir.

Layihə çərçivəsində vebinarlar barədə məlumatlar Azərbaycan Dövlət Rəsm Qalereyasının saytı (www.azgallery.az) və sosial media hesablarından izləmək mümkündür.

№75 (1852)
6 oktyabr 2021
www.medeniyyet.az

# Türk Dünyası Sənədli Film Festivalında 25 ekran əsəri yarışacaq

## Proqramda Azərbaycandan 4 film var

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Türk Dünyası Jurnalistlər Federasiyasının təşkilatçılığı ilə keçirilən 6-cı Türk Dünyası Sənədli Film Festivalı üçün seçim başa çatıb.

Bu il festivala rekord sayda – 226 film müraciət edib və onlardan 25-i finala vəsiqə qazanıb. Ekran əsərləri iki müsabiqə proqramında – "Peşəkar filmlər" və "Tələbə filmləri" nominasiyalarında yarışacaq.

Peşəkar sənədli filmlər müsabiqəsi üçün seçilən 15 film arasında Azərbaycandan 4 ekran işi var. Bunlar Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası tərəfindən istehsal olunmuş "Biz" (rejissor Orman Əliyev), Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyası tərəfindən istehsal olunmuş "Sonuncu" (rejissor Fariz Əhmədov), habelə "Hədiyyə" (rejissor Rövşən Nicat) və "Son sütun" (rejissor Elvin Mirzəyev) filmləridir.




Festivalın mükafatlandırma mərasimi İstanbulda keçiriləcək.

Festivalın builki mövzusu "Türk mədəniyyəti və türkün dünyaya baxışı" olaraq müəyyən edilib. Mükafat qazanan filmlər "Dildə birlik: 9 ölkə – 9 şəhər – 1 festival" şüarı ilə doqquz ölkədə – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Makedoniya, Kosovo, Macarıstan, Bosniya və Herseqovina və Şimali Kipr Türk Cümhuriyyətində nümayiş olunacaq.

# Daşkənd kinofestivalı çərçivəsində milli mətbəximiz də təqdim edilib

Xəbər verdiyimiz kimi, Daşkənddə sentyabrın 28-dən oktyabrın 3-dək davam edən "İpək Yolunun incisi" Beynəlxalq Film Festivalında ölkəmiz də təmsil olunub. Özbəkistan paytaxtı ilə yanaşı, Xivə və Nukus şəhərlərində də Azərbaycan kinosu günləri keçirilib.

Festival çərçivəsində Azərbaycan milli mətbəxinin təqdimatı da olub. Tədbirdə Özbəkistandakı səfirliyimizin, Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM), "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin rəhbərləri və əməkdaşları, iki ölkənin aşpazları iştirak ediblər.

Milli mətbəx sahəsində ekspert, "www.diyar.az" layihəsinin rəhbəri Nigar Əmirbəyova dolmanın müxtəlif növlərinin hazırlanma prosesi ilə bağlı ustad dərsləri keçib. İştirakçılar Nigar Əmirbəyovanın təqdimatını yüksək qiymətləndirib, tədbirin Azərbaycan mətbəx mədəniyyətinin tanıdılması istiqamətində mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Bununla bərabər özbək milli plovunun hazırlanması üzrə ustad dərsləri də təqdim olunub.

Azərbaycan və özbək yeməklərinin oxşar və fərqli xüsusiyyətlərinə dair çıxışlar dinlənilib.

AMM-in hazırladığı mədəni proqramda "Özbəyim yoşları" musiqi qrupu, azərbaycanlı saz ustası İlham Abdullayev və ölkəmizi "Eurovision-2017" musiqi yarışmasında təmsil etmiş Diana Hacıyevanın ifaları dinlənilib.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev və Özbəkistan Aşpazlar Assosiasiyasının rəhbəri Akbar Umarov ustad dərslərini yüksək qiymətləndirib, Azərbaycan milli mətbəxinin zəngin ənənələrə malik olduğunu vurğulayıblar.



# Vaşinqtonda ənənəvi Türk Festivalı keçirilib

Vaşinqton şəhərində 18-ci Türk Festivalı keçirilib. Minlərlə şəhər sakininin qatıldığı festivalda qonaqlara türk mətbəxi nümunələrini dadmaq, musiqilər dinləmək, müxtəlif suvenirlər, əl işləri almaq fürsəti yaradılıb. "ATA-DC" Türkiyə-Amerika Cəmiyyəti tərəfindən ABŞ paytaxtında hər il təşkil olunan festival böyük marağa səbəb olur.



Festival hər il Vaşinqtonun müxtəlif yerlərində keçirilir. Builki festival paytaxtın "The Wharf" ("Liman") adlanan tarixi hissəsində təşkil edilib. Əvvəllər burada açıq səma altında ən uzun balıq bazarı yerləşirdi. Son illər ərzində "Wharf" inkişaf edərək Kolumbiya dairəsinin sahilboyunda ən maraqlı yerlərdən birinə çevrilib.

Festivalda türk musiqisi, həmçinin türkdilli xalqların mahnı və rəqsləri, o cümlədən Azərbaycan milli rəqsləri təqdim edilib. Vaşinqtondan olan "Silk Road Dance Company" rəqs qrupu qonaqlara Azərbaycan və özbək rəqslərini nümayiş etdirib. Festival ziyarətçiləri Osmanlı dövlətinin və Türkiyənin mədəniyyətini əks etdirən eksponatlarla, türk xalçaları, ənənəvi geyimlər və qabqacaqla tanış olublar.

# Azərbaycanlı dizaynerin "Sumax"ı Parisdə göstərilib

AFFFAİR markasının təsisçisi, məşhur azərbaycanlı dizayner Rüfət İsmayıl Paris moda həftəsi çərçivəsində "Haute Couture Sumakh" kolleksiyasını təqdim edib.



Dizayner kolleksiyanı Azərbaycan xalçalarının gözəlliyindən, əvəzolunmaz zərifliyindən, Qarabağ xalça məktəbinin nümunələrindən ruhlanaraq ərsəyə gətirib.

Heydər Əliyev Fondunun və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə hazırlanan "Sumax" kolleksiyasına Çələbi, Xanlıq, Nəlbəki-gül naxışları və Azərbaycan xalçalarının zəngin motivləri əsasında hazırlanan 21 geyim daxildir.

Azərbaycan xalçaçılıq sənətinin gözoxşayan çalarlarını özündə əks etdirən kolleksiya böyük maraqla qarşılanıb.

"Haute Couture Sumakh" kolleksiyasının bundan sonra Moskvada, Bakıda və Nyu-Yorkda nümayişi planlaşdırılır.

Rüfət İsmayıl kolleksiyaları Milan, Nyu-York, Dubay moda həftələri kimi möhtəşəm tədbirlərdə nümayiş etdirilən ilk azərbaycanlı dizaynerdir. Modelyer Türkiyə Moda Dizaynerləri Assosiasiyası tərəfindən "Türkiyənin ən yaxşı dizayneri-2018" mükafatına layiq görülüb.

# Türk teatrının rüzgarı Balkanlarda əsir

Türkiyədə teatr tamaşaçıları tərəfindən böyük maraqla izlənilən iki səhnə əsəri Balkanlarda sənətsevərlərlə görüşəcək. Türkiyə Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, İstanbul Dövlət Teatrının "Bir nəfəs Dədə Qorqud" tamaşası Şimali Makedoniyada, Ankara Dövlət Teatrının "Bizim Yunus" tamaşası isə Albaniyada təqdim olunacaq.

"Bir nəfəs Dədə Qorqud" Şimali Makedoniyanın Qostivar şəhərində 5-ci Beynəlxalq Otello Teatr Festivalının proqramında (5 oktyabr) yer alıb. Tamaşa "Dədə Qorqud" eposundan Dirsə xan oğlu Buğac, Dəli Domrul və Təpəgöz haqqında hekayətlər əsasında səhnələşdirilib. Festivalda Balkan ölkələrinin aparıcı teatr rejissorları, tənqidçiləri və sənətçilərindən ibarət münsiflər heyəti "ən yaxşı tamaşa", "ən yaxşı rejissor", "ən yaxşı aktyor" və "ən yaxşı aktrisa" nominasiyalarında qalibləri müəyyən edəcək.

Ssenarisi Sönməz Atasoy tərəfindən yazılan və Türkiyə Dövlət Teatrlarının baş bədii rəhbəri Mustafa Kurtun quruluş verdiyi "Bizim Yunus" tamaşası Albaniyada Skampa Teatr Festivalının xüsusi qonağıdır. Bu il 23-cü dəfə keçirilən festivalda Türkiyə ilə yanaşı Kosovo, Litva, Serbiya, Albaniya və Monteneqronun teatr kollektivləri də səhnəyə çıxacaq. "Bizim Yunus" 6 oktyabrda Skampa səhnəsində sənətsevərlərlə görüşəcək. Yunus Əmrə obrazını Ankara Dövlət Teatrının aktyoru Alpay Ulusoy canlandırır.

**Mehparə SULTANOVA**
**Ankara**

# Türküstanda yeni teatr binası yeni əsərlə açılır

Bu həftəsonu (9-10 oktyabr) Qazaxıstanın Türküstan şəhərində Musiqili Dram Teatrının yeni binasının açılışı olacaq. Yeni səhnədə ilk dəfə tanınmış yazıçı-dramaturq, Qazaxıstan Dövlət mükafatı laureatı Dulat İsabekovun "Börte" pyesi oynanılacaq.

Çingizxanın baş hərəmi Börteyə həsr olunmuş əsərdə hadisələr böyük sərkərdənin nəhəng imperiyanı idarə etdiyi dövrdə baş verir. Əsər müdrik və gözəl, cəsur və qorxmaz, həyatı faciələrlə dolu, böyük sərkərdənin həyatında mühüm rol oynamış qıpçaq qızı Börtenin taleyindən bəhs edir.

Pyesə səhnə həlli vermək üçün İtaliyadan tanınmış teatr rejissoru Davide Livermor dəvət edilib. O, indiyədək "Astana Opera"da C.Puççininin "Turandot", P.İ.Çaykovskinin "Yevgeni Onegin" operalarına maraqlı quruluş verib. "Börte" tamaşasının bədii rəhbəri Aynur Kopbasarova, elmi məsləhətçisi tarix elmləri namizədi Nurlan Atıqayev, rəssamları Janat Kokimbayev və Ayjan Abduayt, bəstəkarı Xamit Şanqaliyevdir.

Sanballı səhnə əsəri ilə pərdələrini açan teatrın direktoru və bədii rəhbəri Aynur Kopbasarovanın dediyinə görə,




"Börte"nin ardınca teatr müasir texnologiya və kreativ həllər əsasında bir neçə yeni orijinal tamaşanı təqdim edəcək.

Qazaxıstan Respublikasının ilk Prezidenti Nursultan Nazarbayevin xeyir-duası ilə yaradılmış Türküstan Musiqili Dram Teatrının binası şəhərin ən gözəl tikililərindəndir.

Dulat İsabekovun sözlərinə görə, "Börte" artıq rus və monqol dillərinə çevrilib, pyesin ingilis və fransız dillərinə tərcüməsi üzərində iş gedir. Odur ki, yaxın zamanlarda tarixi mövzuda pyesin beynəlxalq premyeraları barədə məlumat verməli olacağıq.

**GÜLCAHAN**

# Turizm imkanlarımız "Expotravel-2021" sərgisində təbliğ olunub

Rusiyanın Yekaterinburq şəhərində keçirilən, Azərbaycan Turizm Bürosunun da işgüzar proqramın tərəfdaşı qismində iştirak etdiyi "Expotravel-2021" turizm sərgisində ölkəmizin turizm imkanları təbliğ edilib.



Dövlət Turizm Agentliyindən bildirilib ki, sərgidə iştirakın məqsədi Azərbaycanın turizm məhsullarını Rusiyanın ən böyük vilayətlərindən olan Sverdlovsk sakinlərinə təqdim etmək, həmçinin Yekaterinburq şəhərində fəaliyyət göstərən turizm şirkətləri ilə tərəfdaşlıq əlaqələri qurmaq olub.

Tədbirdə aktiv istirahətə həsr edilən plenar görüş keçirilib, habelə "TASS-URAL" media mərkəzinin təşkil etdiyi mətbuat konfransında, eləcə də Yekaterinburqun yerli televiziya kanalının səhər proqramında Azərbaycanın turizm imkanları haqqında məlumat verilib. Bundan əlavə, Azərbaycanın müalicəvi kurortlarına və dağ-xizək mərkəzlərinə həsr edilmiş 2 təqdimat təşkil olunub.

1999-cu ildən etibarən keçirilən "Expotravel" turizm sərgisində bu il 15 ölkə iştirak edib.

# Kəndin adı Killer olarsa...

Almaniyanın Baden-Vürtemberq federativ əyalətində qeyri-adi adı olan kiçik kənd var. Kənd "Killer" (hərfi tərcüməsi – "Qatil") adlanır.




Təxminən 600 sakinin yaşadığı kəndin ilk adı Kirxvayler olub, zaman keçdikcə dəyişdirilərək Kilvilar, sonra Killar və nəhayət, Killer kimi sabitləşib. Sakinlər belə adlanan kənddə yaşamağa və hətta özlərinin də killerli adlanmasına etiraz etmirlər, amma bir məsələ bu kəndin yerli büdcəsinə baha başa gəlir: bəzi inadkar turistlər bu yaşayış məntəqəsinə giriş və çıxış yerlərində kəndin adı yazılmış yol nişanlarını söküb suvenir kimi aparmağı xoşlayırlar.

Təkcə bu ilin əvvəlindən bəri üç dəfə kəndin adı yazılmış lövhə oğurlanıb. Kəndə üç müxtəlif giriş yerlərində belə nişan vurulub və müntəzəm olaraq belə suvenir əldə etmək arzusunda olanlar tapılır. Bu vəziyyət illər boyu davam edir. Yol nişanını daha yaxşı bərkitməyin də mənası olmayıb. Hətta bu nişanı qaynaq ediblər, lakin oğrular həmin nişanı dirəklə birlikdə aparıblar.

Kənd bələdiyyəsinin rəhbəri bu qeyri-adi qənimətin həvəskarlarının gəlişinə artıq adət edib. Amma hər dəfə yeni nişan sifariş etmək üçün yerli büdcədən müəyyən məbləğ lazım olur.

Çarəsiz qalmış bələdiyyə rəhbəri sakinlərə təklif edib ki, üzərində kəndin adı yazılmış lövhələr istehsal edilsin və oğurluğa görə alına biləcək cərimə ilə müqayisədə xeyli aşağı qiymətə satılsın.

# Fin uşaqlar "Yallı" oynayıb, "Şamaxı mütəkkəsi" bişiriblər

Finlandiyanın Tampere şəhərində magistr təhsili alan Şəfiqə Qasımzadə eyni zamanda Turku şəhərində təhsil müəssisəsində işləyir.



Çalışdığı tədris ocağında onun əsas diqqət yetirdiyi məsələlərdən biri də fin uşaqlara Azərbaycan haqqında məlumatların çatdırılmasıdır. O, təşkil etdiyi həftəlik seminarlarda həm şagirdlər, həm də müəllimlər üçün Azərbaycanın coğrafiyası, ölkəmizin mədəniyyəti, kulinariyası haqqında söhbət açır.

"İlk gün uşaqları Azərbaycanın harada yerləşməsi, paytaxtı, bayrağı və ölkədəki şəhərlər haqqında məlumatlandırdım. Uşaqların Azərbaycanın müxtəlif regionlarından olan şəkillərə və videolara baxaraq fin dilində bir-birlərinə "O yerə getmək istəyirəm" demələri məni çox sevindirirdi. Sonrakı günü milli rəqslərimizə və musiqimizə həsr etdim. Uşaqlar "Yallı" rəqsini izləyərək hərəkətləri təkrar etməli idilər. İlk dəfə üçün çox da yaxşı alınırdı. Milli musiqi olaraq isə onları yaşlarına uyğun olan "Cücələrim" mahnısı ilə tanış etdim", – deyə Şəfiqə Qasımzadə bildirib.

Uşaqlar Azərbaycan bayrağını düzəltməyi də öyrəniblər. Dərs otağında onların düzəltdiyi bayraqlar asılıb. Məşğələlərdə onlara Azərbaycan şirniyyatlarını ("Şamaxı mütəkkəsi") və s. bişirməyi də öyrədilir. Həmvətənimiz Finlandiya Azərbaycanlıları Assosiasiyası ilə birgə Azərbaycanın bu ölkədə tanıdılması istiqamətində fəaliyyətini davam etdirəcəyini bildirir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1902
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.